# Səs

№ 203 (6403) 5 noyabr 2021-ci il. Qiymətı 40 qəpik


8 Noyabr - Zəfər Günü ilə əlaqədar siyasi partiyalara və beynəlxalq təşkilatlara

## MÜRACİƏT

5

# “Biz sülh danışıqlarına başlamağa, sülh müqaviləsini imzalamağa hazırıq”

**Azərbaycan Prezidenti İlham Əliyev** VIII Qlobal Bakı Forumunun açılış mərasimində iştirak edib



2

# Putinin dediyi xəritə:

## Əvvəllər verilən torpaqlar Azərbaycana geri qayıdır

9




Ermənistan rəhbərliyinin boş-boş və "müsbət yönlü" bəyanatları isə sözügedən məsələdə heç bir rol oynamır

“İşğaldan azad edilmiş ərazilərin iqtisadiyyatımıza inteqrasiyası ölkəmizin daha sürətli inkişafında mühüm rol oynayacaq”

5






4

**Rosen Plevneliev:** “Azərbaycan bizim üçün nümunədir”

## Yaşayış minimumu 210 manat olacaq

9



## Hansı peşənin sahibləri ürək xəstəliyinə tutulur?

HƏKİM AÇIQLADI



16

# Erməni KİV-ləri:

## Azərbaycanlılar İrəvanda erməniləri döyüblər!

4





**SSRİ Baş prokurorluğunun keçmiş müstəntiqi: “Azərbaycanın qələbəsi ədalətin təntənəsidir”**

15

Vladimir Kaliniçenko: “Ermənistanda millətçiliyin təzahürü məni heyrətləndirdi, azərbaycanlılar arasında bunu hiss...



**Sergey Markedonov “ikinci on noyabr” haqqında**

14

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Avroatlantik təhlükəsizlik araşdırmaları mərkəzinin aparıcı elmi...

# “Biz sülh danışıqlarına başlamağa, sülh müqaviləsini imzalamağa hazırıq”

## Azərbaycan Prezidenti İlham Əliyev VIII Qlobal Bakı Forumunun açılış mərasimində iştirak edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-də ”COVID-19-dan sonrakı dünya” mövzusunda növbəti Qlobal Bakı Forumu işə başlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib. Prezident İlham Əliyev Forumun açılış mərasimində çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, bugünkü Qlobal Bakı Forumunda gündəlikdə duran təxirəsalınmaz məsələlər müzakirə olunacaq:**

”Mərkəzin həmsədrləri ilə 2021-ci ildə keçiriləcək illik Qlobal Bakı Forumunu müzakirə edəndə biz burada - Bakıda belə geniş təqdimatların olacağını heç təsəvvürümüzə belə gətirə bilməzdik. Bu, birinci növbədə onu göstərir ki, COVID ilə bağlı vəziyyət yaxşılaşır. İkinci növbədə isə, əlbəttə ki, həmçinin onu göstərir ki, siz bu tədbirə böyük əhəmiyyət verirsiniz. Çünki Qlobal Bakı Forumu qlobal siyasətə aid təxirəsalınmaz və vacib məsələlərin müzakirəsi baxımından aparıcı platformalardan birinə çevrilib.

Əvvəlcə, mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə, xanım Prezident Vayra Vike-Freyberqaya və cənab Serageldinə

### İlham Əliyev: “Bu ilin on ayında Azərbaycan Cənub Qaz Dəhlizi ilə 14 milyard kubmetrdən çox qaz nəql edib”



Mərkəzə mükəmməl rəhbərlik etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Hətta pandemiya dövründə onların fəaliyyəti çox nəzərə çarpırdı. Məhz onların rəhbərliyi, Mərkəzə və onun ideallarına sadiqliyi sayəsində bu Mərkəz, qeyd etdiyim kimi, aparıcı beynəlxalq təsisatlardan birinə çevrildi. Mən, həmçinin İdarə Heyətinin üzvlərinə onların verdiyi töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin daimi üzvlərə və iştirakçılara da təşəkkür edirəm.

İdarə Heyətinin üzvləri ilə dünən müzakirə etdiyimiz kimi, bura sanki böyük və mehriban ailədir. Hesab edirəm ki, bu da bizim uğurumuzun səbəblərindən biridir. Sadəcə, bu gün olan iştirakçıların, çıxışçıların, Foruma müraciət edəcək mötəbər şəxslərin siyahısına baxmaq kifayət edər ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nisbətən qısa müddətdə ziyalıların, dövlət məmurlarının, siyasətçilərin, jurnalistlərin, dövlət xadimlərinin və vətəndaş cəmiyyəti üzvlərinin biliklərini, təcrübəsini və baxışını toplayan, böyük potensialı olan çox azsaylı aparıcı beynəlxalq təsisatlardan birinə çevrildiyini deyək. Beləliklə, bugünkü Qlobal Bakı Forumunda gündəlikdə duran təxirəsalınmaz məsələlər müzakirə olunacaq.

Lakin bu məsələlərin müzakirəsindən öncə məmnunluq hissi ilə bildirmək istəyirəm ki, dünən mənə bu il 880-ci ildönümünü qeyd etdiyimiz Nizamiyə həsr olunmuş iki kitab təqdim edilmişdir və mənim Prezident Fərmanıma əsasən bu dahi Azərbaycan şairinin xatirəsini uca tutmaq üçün bu il Azərbaycanda ”Nizami Gəncəvi İli” elan olunub. Bugünkü Forumun gündəliyi çox genişdir. Lakin mən, əvvəlcə, bir neçə məsələyə toxunmaq istərdim.

Birincisi, əlbəttə ki, pandemiya ilə bağlıdır. Çünki bu indi qlobal gündəlikdə bir nömrəli məsələdir. Biz pandemiya, bəziləri isə postpandemiya dövrü haqqında danışır. Bizim artıq postpandemiya dövründə olduğumuz aydın deyil. Çünki müxtəlif ölkələr bu məsələyə fərqli yanaşır. Sizə məlumat vermək istəyirəm ki, Azərbaycan bu xəstəliyin, böhranın baş qaldırdığı vaxtdan, lap əvvəldən həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə çox fəal addımlar atmışdır. Biz bu ilin yanvarın 18-dən regionda ilk ölkələrdən biri olaraq peyvəndləməyə başladıq. Bu vaxta qədər yaşı 18-dən yuxarı olan əhalinin 60 faizindən çoxu iki dozanı alıb. Nisbətən qısa müddət ərzində biz ümumi çarpayı sayı demək olar ki, 4 min olan 13 yeni dövlət xəstəxanası açdıq və ümumilikdə pandemiya ilə mübarizə aparmaq üçün 46 dövlət xəstəxanası ayrılmışdır. İndi bizdə qapanma yoxdur. Vəziyyət nəzarət altındadır. Yeganə məhdudiyyət ondan ibarətdir ki, biz daxili məkanlarda maska taxmaq məcburiyyətindəyik. Ümidvaram ki, biz vəziyyəti nəzarət altında saxlaya biləcəyik.

Eyni zamanda, biz, həmçinin əvvəllər olan qapanmaların yükünü azaltmaq üçün ciddi tədbirlər gördük. Biz işini itirmiş, qapanmalardan əziyyət çəkmiş insanlar üçün 2020-ci və 2021-ci illərdə sosial-iqtisadi yardım paketini ayırdıq və paketin ümumi dəyəri 2,9 milyard ABŞ dolları idi. Bu vəsait dövlət büdcəsindən maliyyələşmişdir. Biz, bunu etməyə davam edəcəyik, çünki biz özlərini tamamilə yeni bir vəziyyətdə görən insanların üzərinə düşmüş yükü azaltmalıyıq. Biz əsasən iki peyvənddən istifadə edirik. ”Sinovac” və ”Pfizer”dən. Qeyd etdiyim kimi, peyvəndləmə səviyyəsi yüksəkdir. Bu, əlbəttə ki, dövlət siyasəti sayəsində mümkün olmuşdur. Eyni zamanda, bildirmək istərdim ki, əhalimizin bu məsələyə çox məsuliyyətlə yanaşması bizdə məmnunluq doğurur və peyvəndləmə məcburi deyil. Bizdə hər hansı bir antipeyvəndləmə kampaniyası və ya hətta antipeyvəndləmə tendensiyası yoxdur. Azərbaycan xalqı peyvəndləmənin vacibliyini anlayır və bu, bizim işimizi xeyli asanlaşdırır. Qlobal miqyasda Azərbaycan, həmçinin çox fəal addımlar atıb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının hazırkı sədri olaraq ötən il bizim təşəbbüsümüzlə aprel və may aylarında hər iki təşkilatın COVID-ə həsr olunmuş xüsusi Zirvə görüşü keçirildi.

Qoşulmama Hərəkatının Sammitində biz BMT-nin Baş Assambleyasının COVID-ə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdik və bu təşəbbüs beynəlxalq birliyin mütləq əksəriyyəti tərəfindən dəstəklənmişdir və bu xüsusi sessiya keçən ilin 3 və 4 dekabr tarixlərində baş tutdu.

Bu, bizim qlobal məsələlərin müzakirəsinə olan töhfəmiz idi. Eyni zamanda, biz BMT-nin İnsan Hüquqları Şurasında peyvəndlərlə bərabər və universal çıxış və peyvəndlərin ədalətli bölgüsünə dair təşəbbüs irəli sürdük. Biz qlobal səviyyədə ”peyvənd millətçiliyi” və vaksinlərin ədalətsiz bölgüsü haqqında danışan ölkələrdənik. Bəzi ölkələr artıq peyvəndin üçüncü dozasının tətbiqini planlaşdırır. Digər ölkələrdə isə vaksinasiyanın səviyyəsi aşağıdır. Beləliklə, biz bərabər imkanların yaradılması üçün bu məsələni müzakirə etməliyik.

Bununla yanaşı, qeyd etmək istəyirəm ki, bizim təşəbbüsümüzlə COVID-19-un müalicəsi ilə bağlı məlumat bazası yaradılıb və Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına üzv ölkələrdə həmin məlumat bazasından istifadə edir. Bu isə öz növbəsində ÜST-yə öz dəstəyini düzgün planlaşdırmağa və proqnozlaşdırmağa kömək edir. Qoşulmama Hərəkatının sədri qismində biz 30-dan artıq ölkəyə maliyyə və humanitar yardımı etmişik. Biz təmənnasız olaraq bir neçə ölkəni peyvənd dozaları ilə təmin etmişik. Eyni zamanda, biz yoxsul ölkələrin dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına könüllü olaraq 10 milyon dollar həcmində maliyyə töhfəsi etmişik. Bunlar bizim qlobal səviyyədə atdığımız addımlardır. Əlbəttə, beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsi və dünyanın aparıcı dövlətlərinin məsuliyyətli yanaşma nümayiş etdirməsi bu xəstəliyin öhdəsindən gəlməyə yardım edəcək.

Ardı Səh. 3

# “Biz sülh danışıqlarına başlamağa, sülh müqaviləsini imzalamağa hazırıq”

## Azərbaycan Prezidenti İlham Əliyev VIII Qlobal Bakı Forumunun açılış mərasimində iştirak edib



### İlham Əliyev: “Pandemiyanın başladığı ilk günlərdən Azərbaycan həm daxildə, həm beynəlxalq səviyyədə çox fəal işlədi”

Əvvəli Səh. 2

Toxunmaq istədiyim digər bir mövzu, Birinci Bakı Qlobal Forumundan başlayaraq hər yeddi Forumda haqqında danışdığım mövzudur - Ermənistan-Azərbaycan münaqişəsi. Bu gün isə demək istəyirəm ki, münaqişə həll edilib. Azərbaycan özü münaqişəni həll etdi. Azərbaycan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri özü yerinə yetirdi. Təəssüflər olsun ki, həmin qətnamələr 27 il ərzində kağız üzərində qaldı və özünümüdafiə hüququnu ehtiva edən BMT Nizamnaməsinin 51-ci maddəsindən istifadə edən Azərbaycan özü ərazi bütövlüyünü bərpa etməsə idi, həmin qətnamələr növbəti 27 il ərzində də kağız üzərində qalacaqdı. Azərbaycan beynəlxalq hüquqi çərçivəni də istifadə etdi, çünki yalnız BMT Təhlükəsizlik Şurası deyil, digər aparıcı beynəlxalq təsisatlar Azərbaycanın ərazilərinin işğalı ilə bağlı bənzər qətnamə və qərarlar qəbul edib. BMT-nin Baş Assambleyası, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası münaqişə ilə bağlı müxtəlif dövrlərdə buna bənzər qərar və qətnamələr qəbul edib ki, ötən il ərazilərimizi azad edərkən gördüyümüz işlər buna tam uyğun idi.

Təəssüf ki, Ermənistan yalnız status-kvonu möhkəmləndirmək, danışıqlar formatını yalnız münaqişənin əbədi dondurulması aləti kimi istifadə etməyə cəhd edirdi. Əvvəlki illərdə Ermənistan hakimiyyəti ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin işğal edilmiş ərazilərin boşaldılması yolu ilə həllinə nail olmaq istiqamətində işləmək görüntüsü yaradırdısa, son bir neçə ildə Ermənistan rəhbərliyi işğal olunmuş torpaqların bir qarışını belə qaytarmayacağını artıq açıq şəkildə bəyan edirdi. Bununla bağlı kifayət qədər sübut var. Təkcə Ermənistanın hazırkı baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərində iki il əvvəl verdiyi bəyanatı qeyd etmək kifayət edər - ”Qarabağ Ermənistandır və nöqtə”. Bu, əslində, danışıqların sonu idi. Birincisi, bu ziddiyyətli və yalan bəyanat idi, çünki Ermənistan rəhbərliyi iddia edirdi ki, Qarabağ ”müstəqil dövlətdir”. Halbuki Ermənistan da daxil olmaqla, dünyanın heç bir ölkəsi onu tanımamışdı. Digər tərəfdən isə onlar deyirdilər ki, ”Qarabağ Ermənistandır”. Yəni bu ziddiyyət Ermənistanın ötən il üzləşdiyi rüsvayçı məğlubiyyətlə nəticələnən təzadlı siyasətinin göstəricisi idi.

Beləliklə, bu qəbildən olan bəyanatlar danışıqların sonu oldu. Mənim təəssüratıma əsasən, ATƏT-in Minsk qrupunun həmsədrləri də bu bəyanatdan təəccüblənmiş və pərt olmuşdular, çünki artıq onların görə biləcəyi bir iş qalmamışdı.

Digər bir bəyanat, Ermənistanın o zamankı müdafiə naziri tərəfindən verilmişdir. O, açıq şəkildə bəyan edirdi ki, Ermənistan ”yeni ərazilər uğrunda yeni müharibə”yə hazırlaşır. Yəni, Azərbaycanın daha çox ərazisini işğal etməklə bağlı aşkar hədələmə. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri səssiz qaldılar, bunu pisləmədilər və bunun qəbuledilməz olması ilə bağlı hətta mesaj belə vermədilər. Ermənistan rəhbərliyinin atdığı bir sıra digər addımlar və verdiyi bəyanatlar Azərbaycanı təhrik etməyə yönəlmişdi. Mən separatçıların qondarma ”prezidentinin” Şuşada keçirilən dırnaqarası ”inauqurasiyasını” qeyd edə bilərəm. Bu, azərbaycanlıların hisslərinin açıq şəkildə təhqiri idi.

Mən, həmçinin separatçıların dırnaqarası ”parlamentinin” Xankəndidən Şuşaya keçirilməsi haqqında Ermənistanın qərarı barədə deyə bilərəm. Bu, azərbaycanlıların hisslərinə növbəti təhqir idi. Ermənistan rəhbərliyi başa düşməli idi ki, xalqımızın hisslərini təhqir etmək iqtidarında deyillər. Hər səbrin hüdudu var.

Sonra, 2020-ci ilin iyulunda onlar sərhəddə açıq hərbi təxribata əl ataraq, mülki şəxslərimizi və hərbçilərimizi qətlə yetirdilər. 2020-ci ilin avqustunda diversiya qrupu göndərdilər ki, terror aktı törətsinlər. O, zərərsizləşdirildi. Son olaraq sentyabrda onlar Azərbaycanın dinc kəndlərini atəşə tutmağa başladılar.

Vətən Müharibəsi adlandırdığımız İkinci Qarabağ müharibəsi 44 gün çəkdi və Ermənistan ordusunun tam məğlubiyyəti ilə bitdi. Ermənistan bizim şərtlərimizi qəbul etməyə məcbur edildi. Müharibənin ilk günlərində deyirdim ki, Ermənistanın baş naziri mənə işğal olunmuş ərazilərdən çıxmaq tarixlərini verəndən sonra biz dayanmağa hazırıq.

Ermənistan rəhbərliyinə təxminən 7000 qurban və 44 gün lazım gəldi ki, özünün tam acınacaqlı vəziyyətdə olduğunu başa düşsün. Noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını imzaladı və müharibə bitdi. Biz öz sözümüzü yerinə yetirdik. İşğal olunmuş qalan ərazilərdən çıxmaq cədvəli verildikdə müharibə dayandı. Dörd gün sonra Azərbaycan xalqı tarixi Qələbəmizin birinci ildönümünü qeyd edəcək.

Azad edilmiş ərazilərdə biz nəyi gördük? Tam dağıntılar baş verib, bir dənə olsun bina salamat qalmayıb. İşğal illəri ərzində onlar bütün tarixi abidələri, 67 məsciddən 65-ni dağıdıblar. Evləri, həyətləri, ictimai binaları və sair tikililəri yerlə-yeksan ediblər. Bu, barbarlığın sübutudur.

Hazırda biz azad edilmiş əraziləri fəal şəkildə bərpa edirik. Genişmiqyaslı bərpa proqramına başlanılıb. Əminəm ki, qısa müddət ərzində biz Ermənistanın işğalından əziyyət çəkmiş məcburi köçkünləri, bir milyondan çox insanı həmin yerlərə qaytara biləcəyik. Müharibə və onun nəticələri onu göstərdi ki, gec və ya tez ədalət zəfər çalır. Siz öz məqsədinizə sadiq olmalısınız, yaxşı hazırlaşmalısınız, beynəlxalq hüquq çərçivəsinə malik olmalısınız və insanların yüksək səviyyədə iradəli olmasına nail olmalısınız. Bütün həmin meyarlar, o cümlədən hərbi imkanlarımız münaqişənin həllində əsas amil oldu. Hazırda münaqişə bitib və qeyd etdiyim kimi, yenidənqurma başlayıb. İndi biz postmünaqişə vəziyyətindəyik və biz Ermənistana bir sıra təkliflər etmişik ki, sülh müqaviləsi üzərində işləməyə başlayaq, çünki biz müharibə deyil, sülh, gələcək haqqında danışmaq istəyirik.

Əfsuslar olsun ki, bu təklifə hələ də cavab verilməyib. Eyni zamanda, biz hər iki ölkənin ərazi bütövlüyünü tanımaqla, dövlət sərhədlərimizin delimitasiyası və demarkasiyası üzərində işə başlamağı təklif etdik. Bu, həmçinin beynəlxalq hüquq normalarına və normal davranışa uyğundur. Bu təklifə də hələ baxılmayıb.

Təxminən 30 illik işğalın əziyyətlərinə, azad edilmiş ərazilərdə vandalizm və barbarlığa baxmayaraq, Azərbaycan maksimal konstruktivlik nümayiş etdirir. Biz gələcəyə nəzər salmalıyıq. Biz regionun təhlükəsiz, proqnozlaşdırılan və genişmiqyaslı əməkdaşlığa hazır olmasını təmin etməliyik. Bu barədə müxtəlif təkliflər var. Ola bilsin, siz onlar haqqında eşitmisiniz. Hesab edirəm ki, hər şey Ermənistanın mövqeyindən asılı olacaq, çünki bizim mövqeyimiz tam aydındır. Bu gün bir daha deyirəm ki, biz hazırıq, sülh danışıqlarına başlamağa, sülh razılaşması üzərində çalışmağa, səhifəni çevirməyə və sərhədin delimitasiyasına hazırıq. Görəcəksiniz ki, Ermənistandan cavab gəlməyəcək. Demək olar ki, bir ildir susurlar. Hesab edirəm ki, hazırda onlar Azərbaycanın konstruktiv təklifinə qarşı çıxmaq mövqeyində deyillər. Əgər, onlar əvvəlki danışıqlar illərində bizi dinləsəydilər, özlərini normal insan kimi aparsaydılar, bugünkü vəziyyətə düşməzdilər.”

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviç Forumda iştirak etməkdən məmnun olduğunu bildirib: Cənab Prezident Əliyev, Sizə, Azərbaycan xalqına öz minnətdarlığımı bildirirəm. Bir daha Sizi ötən il Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı Bəyanatın imzalanması münasibətilə təbrik edirəm. Hesab edirəm ki, bu, Azərbaycanın həmin ərazilərinin reinteqrasiyasında böyük rol oynayan bəyanat olacaq.

Şefik Caferoviç diqqəti 5 milyon insanın ölümünə səbəb olan COVID-19 pandemiyasına çəkdi, bu vəziyyətin dünyanın gələcəyi ilə bağlı qarşıda yeni vəzifələr qoyduğunu qeyd etdi. ”Vəziyyət heç vaxt əvvəlki kimi olmayacaq, artıq dünya dəyişdi”, - deyən Şefik Caferoviç vurğuladı ki, COVID-19 hamıdan ümumi səylərin göstərilməsini tələb edir. Çünki bu böhran təkbaşına aradan qaldırıla bilməz.

Latviya Prezidenti Eglis Levits videomüraciətində bildirdi ki, dünyanın hazırkı vəziyyəti dəqiq nizam-intizam və qlobal səfərbərlik tələb edir. Latviya Prezidenti bu istiqamətdə Azərbaycanın təşəbbüslərini yüksək qiymətləndirərək dedi: Bu baxımdan mən koronavirusa cavab olaraq 2020-ci ilin dekabrında BMT-nin Baş Assambleyasında xüsusi sessiya təşəbbüsü ilə çıxış etmiş Azərbaycanı alqışlamaq istərdim. Bu tədbir pandemiyaya qarşı qlobal səylərin səfərbər olunması məqsədilə BMT platformasının idarə olunmasına çox gözəl nümunə oldu. Ötən il Latviyanın COVID-19 şəraitində yalan məlumata qarşı mübarizə ilə bağlı BMT daxilində irəli sürdüyü regionlararası bəyanata verdiyi dəstəyə görə Azərbaycana bir daha təşəkkür etmək istəyirəm.

Prezident Eglis Levits Qlobal Bakı Forumunu dünyanı narahat edən vacib məsələlərin həll variantlarını bölüşmək üçün mühüm platforma adlandırdı.

Tədbir iştirakçılarını salamlayan Böyük Britaniyanın Azərbaycandakı səfiri Filip Barkley Böyük Britaniya Hökuməti və öz adından Qlobal Bakı Forumuna uğurlar arzuladı.

Səfir Böyük Britaniyanın Baş naziri Boris Consonun Foruma ünvanladığı müraciətin mətnini oxuyub. Sonra VIII Qlobal Bakı Forumu öz işini müxtəlif mövzularda müzakirələrlə davam etdirdi.

# "Qlobal Bakı Forumu beynəlxalq əhəmiyyətli tədbirdir"



## Prezident İlham Əliyev İsrailin sabiq xarici işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də İsrailin sabiq xarici işlər naziri Tzipi Livnini qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumunun önəminə toxunuldu, Prezident İlham Əliyevin Forumun açılış mərasimindəki çıxışının böyük maraqla qarşılandığı bildirildi. Vurğulandı ki, tədbirdə çox sayda mötəbər qonağın iştirak etməsi Qlobal Bakı Forumunun əhəmiyyətini bir daha nümayiş etdirir.

Söhbət zamanı bu Forumun pandemiyadan sonrakı dövrdə beynəlxalq birliyin üzləşdiyi məsələlərin müzakirə edildiyi ilk tədbirlərdən biri olduğu məmnunluqla qeyd edildi.



## Prezident İlham Əliyev Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenkonu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenkonu qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə "COVID-19-dan sonrakı dünya" adı altında VIII Qlobal Bakı Forumunun yüksək səviyyədə keçirilməsinin önəmi vurğulandı. Pandemiyaya baxmayaraq, Bakıda yenidən təşkil olunan bu tədbirdə xeyli sayda nüfuzlu qonaqların iştirak etməsi Foruma və ölkəmizə olan marağın təzahürü kimi qiymətləndirildi.

Söhbət zamanı tədbir iştirakçıları arasında səmərəli əməkdaşlığın həyata keçirilməsi də məmnunluqla qeyd edildi.

## "Məqsədimiz İranla münasibətlərimizin keçmişdə olduğu kimi, müsbət müstəvidə inkişaf etməsidir"

Azərbaycanın xarici siyasətinin uzun illər ərzində prioriteti bütün ölkələrlə, xüsusilə də qonşu ölkələrlə yüksəksəviyyəli əməkdaşlıq, dostluq münasibətlərinin qurulması və onların inkişaf etdirilməsidir. Bu illər ərzində də Azərbaycan-İran münasibətləri məhz bu istiqamətdə inkişaf edib. Son illər ərzində iki ölkə arasında çoxsaylı birgə layihələr həyata keçirilib - Şimal-Cənub dəhlizi, Araz çayı üzərində böyük layihələr, birgə iqtisadi yatırımlar. Bir neçə ay bundan öncə bir sıra məqamlar yaşandı. Onlar əsasən Azərbaycanın Qarabağ bölgəsinə İrandan maşınların daxil olması ilə bağlı idi. Bununla bağlı narahatlığımız İran tərəfə çatdırılıb. Sonradan müxtəlif istiqamətlər, o cümlədən diplomatik kanallar vasitəsilə danışıqlar davam etdirilib. Hesab edirəm ki, bu istiqamətdə normal nəticə əldə olunub.




AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib.

Nazir, həmçinin bildirib: "Hesab edirəm ki, iki ölkə arasında, hətta yaxın qonşu ölkələr arasında hansısa fikir ayrılıqları ola bilər. Azərbaycan hər zaman bütün münasibətlərin dialoq, qarşılıqlı hörmət, bir-birilərinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında qurulmasının tərəfdarıdır. Düşünürəm ki, bu istiqamətdə də işlər davam edəcək. İran tərəfdən də bu istiqamətdə müsbət mesajlar səsləndirilib. Biz həmin mesajları müsbət qarşılayırıq. Məqsədimiz odur ki, İran dövləti ilə münasibətlərimiz keçmişdə olduğu kimi, müsbət müstəvidə inkişaf etsin".

## Rosen Plevneliev: "Azərbaycan bizim üçün nümunədir"

Biz qlobal pandemiyanın təsirlərindən qurtularaq nikbin iqtisadiyyata yaxınlaşmalıyıq. Uzunmüddətli planların işlənib hazırlanması, təsdiqlənməsi və onların əhalinin maddi rifah halının yaxşılaşdırılmasına sərf edilməsi çox gözəldir. Bu məsələdə Azərbaycan bizim üçün nümunədir. Gəlin, Azərbaycandan öyrənək və iqtisadiyyatımızı dirçəldək.




AZƏRTAC xəbər verir ki, bu fikirləri Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliev noyabrın 4-də VIII Qlobal Bakı Forumu çərçivəsində "Yeni dünya iqtisadiyyatı" mövzusunda keçirilən panel müzakirələri zamanı deyib.

Rosen Plevneliev forumdakı müzakirələrin qlobal iqtisadi duruma müsbət təsir edəcəyinə ümidvar olduğunu bildirib. Qeyd edib ki, forumda maraqlı ideyalar və fikirlər səsləndi. İqlim dəyişikliyi problemindən də danışan natiq Azərbaycan Prezidenti İlham Əliyevlə bərabər digər dövlət başçıları qlobal iqlimlə bağlı müəyyən razılığa gəldiyini qeyd edib.

## Erməni KİV-ləri: Azərbaycanlılar İrəvanda erməniləri döyüblər!

Səbəb: ermənilər azərbaycanlılardan "türk" dilində danışmamağı tələb edərək onlara qarşı təhqirlər səsləndiriblər

Bir neçə gün öncə İrəvanda baş verən hadisə Ermənistanda böyük səs-küyə səbəb olub. Ölkədə dərc edilən "Fakt" qəzetinin yazdığına görə, noyabrın 1-də İrəvanda fəaliyyət göstərən gecə klublarının birində Cənubi Azərbaycandan olan soydaşlarımız istirahət edərkən ana dilində danışaraq əyləniblər və Azərbaycan musiqisi dinləmək üçün sifarişlər ediblər. Lakin gecə klubunun əməkdaşları onların bu sifarişlərini yerinə yetirməyiblər və bundan əlavə klubda olan digər ermənilər azərbaycanlılardan "türk" dilində danışmamağı tələb edərək təhqirlər səsləndiriblər. Nəticədə aqressiya və təhqirlərə dözməyən soydaşlarımızla yerli ermənilər arasında kəskin münaqişə yaranıb. Məsələ böyüyüb və azərbaycanlılar onları söyən erməniləri möhkəmcə əzişdiriblər. Sonda işə İrəvan polisi qarışmalı olub və münaqişə tərəfləri şöbəyə aparılıblar.



### 7 nəfər azərbaycanlının sərt yumruqları altına 14 nəfərdən çox erməni düşüb

İrəvan polisinin məlumatına görə, 37 yaşlı Seyid Nurullahi, 24 yaşlı Araş Təvəkküli, 25 yaşlı İmad Hüseynxan, 22 yaşlı Əmir Babazadə, 19 yaşlı Həsən Pavin, 35 yaşlı Əhməd Əsgəri və 39 yaşlı Haşim adlı şəxs saxlanılıblar. Aparılan araşdırmalardan sonra məlum olub ki, bizim soydaşlarımız onları təkcə təhqir edən klub müştərilərini deyil, həm də klubun mühafizəçilərini də döyməyə müvəffəq olublar. Belə ki, azərbaycanlılar istintaqa verdikləri izahatlarında bildiriblər ki, klubdakı ermənilər onların milliyyətlərinə, ana dillərinə hörmətsizlik göstəriblər və bu da dava-dalaşa gətirib-çıxarıb. Məlumatda o da bildirilir ki, 7 nəfər azərbaycanlının sərt yumruqları altına 14 nəfərdən çox erməni düşüb. Faktla bağlı cinayət işi açılıb, saxlanılan soydaşlarımız isə azadlığa buraxılıblar.

*Rövşən RƏSULOV*



## Roma Papası VIII Qlobal Bakı Forumuna müraciət ünvanlayıb

VIII Qlobal Bakı Forumunun keçirilməsi Nizami Gəncəvinin 880-ci ildönümünə təsadüf edir. Bilirik ki, 2021-ci il Azərbaycanda "Nizami Gəncəvi İli" elan edilib. Bu, bizim regionumuzda birliyin rəmzidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Roma Papası Fransiskin VIII Qlobal Bakı Forumuna ünvanlanmış müraciətində yer alıb.

Müraciətdə, həmçinin deyilir: "Bilirik ki, bu tədbir çərçivəsində COVID-19-la bağlı məsələləri müzakirə edəcəksiniz və ən təxirəsalınmaz suallara cavab axtaracaqsınız. Bu tədbirlərin keçirilməsi icmalar arasında daha çox anlaşmaya, öhdəliklərə daha məsuliyyətlə yanaşmağa, əməkdaşlığın, dialoqun və qarşılıqlı hörmətin dərinləşməsinə imkan yaradacaq".

# 8 Noyabr - Zəfər Günü ilə əlaqədar siyasi partiyalara və beynəlxalq təşkilatlara MÜRACİƏT

**Azərbaycanın qalib gələrək 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş ərazilərini azad etdiyi Vətən müharibəsindən bir il ötür. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri növbəti dəfə təxribat törədərək bir neçə istiqamətdə Azərbaycanın yaşayış məntəqələrini, mülki əhalisini müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə atəşə tutdu. Ermənistan rəhbərliyinin məkrli planının - yeni torpaqlar işğal etmək məqsədinin qarşısını almaq üçün Azərbaycanın əks-həmləyə keçməkdən və düşmənə layiqli cavab verməkdən başqa seçimi qalmadı.**

44 gün davam edən Vətən müharibəsi çoxəsrlik tariximizin ən parlaq səhifəsi, milli qürur, şərəf və qəhrəmanlıq salnaməsidir. Azərbaycan Ordusunun inamlı və qətiyyətli Zəfər yürüşü nəticəsində qazanılan Qələbə təkcə Azərbaycanın ərazi bütövlüyünü deyil, eyni zamanda, tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdi.

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə XXI əsrin müharibəsini aparan şanlı Azərbaycan Ordusu öz gücünü döyüş meydanında göstərərək 300-dən çox yaşayış məntəqəsini, həmçinin mühüm strateji yüksəklikləri işğaldan azad etməklə müasir hərb tarixində yeni səhifələrə imza atdı. Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanat Azərbaycanın hərbi-siyasi qələbəsinin təsdiqi olmaqla yanaşı, daha böyük itkilərin qarşısını almış oldu. Belə ki, Ermənistan üçtərəfli Bəyanata imza atmaqla Kəlbəcər, Ağdam və Laçın rayonlarını döyüşsüz Azərbaycana qaytarmağa məcbur oldu və ölkəmiz 30 ilə yaxın davam edən işğal faktına öz hərbi-siyasi gücü ilə son qoydu. Beləliklə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının uzun illər ərzində kağız üzərində qalmış 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasını təmin etməklə separatizmə son qoydu. Dövlət başçısının 3 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Şuşa şəhərinin azad olunduğu gün - noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təsis edilib. Bu, ən yeni tariximizin parlaq səhifəsi olan Zəfər salnaməsinin gələcək nəsillərə ötürülməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir.




Vətən müharibəsindən sonra ötən bir ildə Azərbaycan tərəfindən atılan addımlar tarixi Qələbəmizin nəticələrinin iqtisadi, siyasi və diplomatik müstəvidə möhkəmləndirilməsini təmin edir. Artıq bütün dünya ictimaiyyətinə azad edilmiş ərazilərdə işğal dövrü ərzində törədilmiş dağıntıların miqyası, Azərbaycanın şəhər, qəsəbə və kəndlərinin, dini, mədəniyyət abidələrinin yerlə bir edilməsi, Ermənistanın misli görünməmiş ekoloji cinayətləri ilə tanış olmaq imkanı yaradılmışdır. Bu gün işğaldan azad edilmiş ərazilərdə ardıcıl və sistemli abadlıq-quruculuq işləri aparılır, kənd, qəsəbə və şəhərlərimiz, tarixi, dini və mədəni abidələrimiz bərpa edilir. Həmin ərazilərdə müasir yol infrastrukturunun yaradılması, Füzuli, Zəngilan və Laçın rayonlarında beynəlxalq hava limanlarının inşası və digər addımlar uzun illərdir öz evlərindən didərgin salınan, hüquqları pozulan yüz minlərlə azərbaycanlının öz doğma yurduna dönməsinin - Böyük Qayıdışın qısa zamanda və ən yüksək səviyyədə həyata keçirilməsinə geniş imkanlar yaradır. Şübhəsiz ki, müasir bərpa-quruculuq konsepsiyaları əsasında reallaşdırılan tədbirlər - görülən işlər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulmasına səbəb olacaq, 30 illik hərbi-siyasi əsarətdən xilas edilmiş ərazilərimizə yeni həyat və nəfəs verəcək. Lakin Ermənistan tərəfinin işğaldan azad edilmiş ərazilərin dəqiq mina xəritələrini verməkdən yayınması bərpa-quruculuq işlərinin həyata keçirilməsi prosesini ləngitməklə yanaşı, bu gün də insan tələfatına səbəb olur. Bununla da müharibə zamanı Azərbaycanın yaşayış məntəqələrini qadağan edilmiş silahlardan da istifadə etməklə atəşə tutaraq 100-dən artıq mülki sakinin ölümünə səbəb olan Ermənistan insanlığa qarşı yeni cinayətlərin baş verməsinə zəmin yaradır.

Artıq münaqişə və müharibə tarixə çevrilib - geridə qalıb, regionda postmüharibə dövrü başlayıb. Bu mərhələdə qarşılıqlı etimadın yaradılması, sülh, təhlükəsizlik və əməkdaşlığın təmin olunması mühüm vəzifə və prioritet kimi müəyyənləşdirilib. Azərbaycan uzun illər bölgədə sabitliyə, tərəqqiyə ciddi təhdid mənbəyi olan münaqişəni həll etməklə regionda sabitliyin və iqtisadi inkişafın təmin olunması üçün geniş imkanlar yaradıb. Zəngəzur dəhlizinin açılması, nəqliyyat-kommunikasiya xətlərinin bərpası geniş formatda əməkdaşlıq şəraitinin formalaşması, Cənubi Qafqazın bütün potensialı ilə işbirliyi məkanına çevrilməsi deməkdir. Bu isə həm Azərbaycan, həm Ermənistan, həm də region ölkələri üçün geosiyasi, geoiqtisadi cəhətdən faydalı və perspektivlidir, rifah və inkişaf vəd edir.

İndi mövcud reallıqlar fonunda Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması, sərhədlərin dəqiq müəyyənləşdirilməsi, sülh şəraitində xalqların birgəyaşayışının təmin olunması mühüm çağırış kimi qarşıda duran əsas strateji vəzifələrdən biridir. Azərbaycan bu istiqamətdə öz üzərinə düşənləri yerinə yetirir, qəti və birmənalı mövqe sərgiləməklə müvafiq təkliflərlə, təşəbbüslərlə çıxış edir. Ermənistan da öz növbəsində dəqiq və konkret yanaşma ortaya qoymalı, üçtərəfli Bəyanatdan irəli gələn bütün öhdəliklərini qeyd-şərtsiz yerinə yetirməlidir.

Azərbaycan Respublikasının aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası da beynəlxalq hüququn norma və prinsipləri əsasında regionda sülh, təhlükəsizlik və əməkdaşlıq ideyalarına sadiqlik nümayiş etdirilməsinin vacibliyini qətiyyətlə bəyan edir. Hesab edirik ki, dünya ictimaiyyəti, ayrı-ayrı ölkələr, beynəlxalq təşkilatlar, siyasi partiyalar da Ermənistanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan irəli gələn öhdəlikləri yerinə yetirməsinə səy göstərməlidir. Ermənistan Azərbaycanın regionda dayanıqlı etimad, etibarlı təhlükəsizlik və faydalı əməkdaşlıq mühitinin yaradılması ilə bağlı çağırışlarına müsbət yanaşmalı, bəşəri dəyərlərə və beynəlxalq hüquq normalarına əsaslanan təşəbbüslərinə adekvat cavab verməlidir. Cənubi Qafqazda möhkəm sülh, barış və qarşılıqlı etimadın bərqərar edilməsi üçün bütün siyasi qüvvələri və təşkilatları birgə fəaliyyətə və səmərəli əməkdaşlığa çağırırıq.

Müraciət Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Qələbənin ilk ildönümü: Zəfər iqtisadiyyatının rolu və hədəfləri" mövzusunda konfransda qəbul edilmişdir.

## "İşğaldan azad edilmiş ərazilərin iqtisadiyyatımıza inteqrasiyası ölkəmizin daha sürətli inkişafında mühüm rol oynayacaq"



"Ölkəmiz, o cümlədən dünyada yaşayan azərbaycanlılar çoxəsrlik tariximizdə mühüm yer tutan 8 Noyabr-Zəfər Gününün qeyd edilməsinə hazırlaşır". Bu fikri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, ərazilərimizin işğaldan azad olunması təkcə ərazi bütövlüyümüzün təmin olunması, tarixi ədalətin bərpa edilməsi deyil, eyni zamanda Azərbaycan iqtisadiyyatına əlavə güc deməkdir. Həmin ərazilərin də ölkə iqtisadiyyatına inteqrasiya edilməsi ölkəmizin daha sürətli inkişafında mühüm rol oynayacaq.

"Bilirsiniz ki, Azərbaycan açıq dənizə çıxışı olmayan ölkədir. Amma ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən və çoxşaxəli fəaliyyəti sayəsində Azərbaycan bu gün bir logistika mərkəzi kimi dünya ticarət əlaqələrində önəmli yer tutan bir ölkə kimi özünü təsdiq edib. Zəngəzur dəhlizinin açılması ilə ölkəmizin tranzit potensialı daha da yüksələcək və düşünürəm ki, bu proses də Azərbaycanın bundan sonra daha sürətli inkişafına, regionda, ümumiyyətlə dünyadakı mövqeyinin daha da möhkəmlənməsinə, xalqımızın rifahına xidmət edəcək",-deyə YAP Sədrinin müavini vurğulayıb.

## Şahmar Mövsümov: "Azərbaycan COVID-19 pandemiyası ilə mübarizədə fəal mübarizə aparıb"




Azərbaycan COVID-19 pandemiyası ilə mübarizədə fəal mübarizə aparıb və bu məqsədlə dövlət büdcəsindən ümumilikdə 2 milyard vəsait ayrılıb. Biz pandemiya ilə mübarizədə yolun ortasındayıq. Turizm sektoruna, iqtisadiyyata, bütün sahələrə ciddi ziyan dəyib. Bu çətin vəziyyətdən çıxış yolunun tapılması, iqtisadiyyatın dirçəldilməsi müdaxiləsiz mümkün deyil. Qüvvələr səfərbər edilməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov noyabrın 4-də VIII Bakı Qlobal Forumu çərçivəsində ikinci panel müzakirələri zamanı deyib.

Şahmar Mövsümov diqqətə çatdırıb ki, pandemiya səbəbindən əsas diqqət, əlavə vəsait səhiyyə və iqtisadiyyata sərf edildi. Nəticədə ölkədə ÜDM-də 4,2 faiz azalma müşahidə olundu. Bu il Azərbaycanın iqtisadiyyatında 5,9 faiz artım müşahidə olunub, gələn il isə bu rəqəmin 4,7 faiz olacağı gözlənilir.

Azərbaycanda əhalinin 40 faizinin artıq vaksinasiya olunduğunu və bu prosesin getdiyini bildirən Prezidentin köməkçisi bəzi ölkələrdə bu göstəricinin 10 faiz təşkil etdiyini vurğulayıb. Bunun da səbəbinin Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, vaksinlərin ölkələr arasında bölüşdürülməsindəki ədalətsizliklə bağlı olduğunu deyib.

# “Qələbənin ilk ildönümü: Zəfər iqtisadiyyatının rolu və hədəfləri”

## YAP Mərkəzi Aparatında bu mövzuda konfrans keçirilib



**Noyabrın 4-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə ”Qələbənin ilk ildönümü: Zəfər iqtisadiyyatının rolu və hədəfləri” mövzusunda konfrans keçirilib.**

Əvvəlcə tədbirdə ”44 günlük zəfər salnaməsi” filmi nümayiş etdirilib.

Sonra ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, tarixi zəfəri bizə bəxş edərək öz həyatlarını qurban vermiş igid zabit və əsgərlərimizin, ümumilikdə Vətən uğrunda, onun müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün bacı və qardaşlarımızın, bütün mənalı həyatını bu yolda fəda etmiş, Azərbaycan xalqı və dövlətinin rifahına həsr etmiş ümummilli lider Heydər Əliyevin xatirəsini hər zaman böyük ehtiramla anırıq. O qeyd edib ki, Azərbaycan xalqı tarixə öz adını qalib, qurucu və qürurlu xalq kimi yazmağı bacarıb: ”2020-ci ildə baş vermiş 44 günlük İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Vətən müharibəsində Azərbaycan xalqı Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə öz gücünü səfərbər edərək milli qürur və ləyaqətin bərpasına, işğal faktının, tarixi ədalətsizliyin aradan qaldırılmasına və separatizmin məhv edilməsinə nail oldu. Şübhəsiz ki, bu Zəfər salnaməsinin yaradılması - Qələbə dastanının yazılması, yeni mürəkkəb geosiyasi şəraitdə, dünya siyasətində toqquşan və kəsişən strateji maraqların fonunda Azərbaycanın torpaqlarının işğaldan azad edilməsinə müvəffəq olması sadə və sıradan məsələ deyil.





Biz qürurla və iftixarla qeyd edirik ki, torpaqlarımız döyüş meydanında Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun erməni faşizmini məhv etməsi, işğalçıları darmadağın edərək layiqincə cəzalandırması nəticəsində azad olunub. Bu, XXI əsrin müharibəsini aparan Azərbaycan Silahlı Qüvvələrinin gücünü, əzmini və peşəkarlığını əks etdirən çox mühüm faktdır. Amma eyni zamanda xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi müstəqillik illərində həyata keçirilən uğurlu, milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara müvafiq strateji kursun real - məntiqi nəticəsidir”.

YAP Sədrinin müavini deyib ki, ümummilli lider Heydər Əliyevin siyasətini dövrün tələblərinə uyğun keyfiyyətcə yeni müstəvidə uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə atılan addımlar, həyata keçirilən tədbirlər Azərbaycanın milli gücünün artmasını, strateji hədəflərə və qələbəyə doğru əmin addımlarla irəliləməsini təmin edib. Prezident İlham Əliyevin inkişafa, intibaha, tərəqqiyə və qələbəyə hədəflənən siyasəti sayəsində Azərbaycanın iqtisadi müstəqilliyi tam təmin edilib, ölkənin maliyyə imkanları genişlənib. Yeni güclü iqtisadiyyat quruculuğu, iqtisadi inkişaf bizi tarixi Zəfərə aparan çox mühüm - həlledici amillərdən biri olub.

Onun sözlərinə görə, son 18 ilin göstəriciləri makroiqtisadi sabitliyə nail olan Azərbaycanın innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan əsas hədəfləri uğurla reallaşdırdığını təsdiqləyir: ”Ümumi daxili məhsul istehsalının artım göstəriciləri də bu reallığın ifadəsidir. Belə ki, Azərbaycanda sözügedən dövrdə müşahidə olunan ÜDM-nin 3,2 dəfəlik artımı dünya üzrə ən yaxşı göstəricilərdəndir. Digər əhəmiyyətli faktor Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli olmasıdır. Son 18 ildə Azərbaycana daxili və xarici mənbələrdən 274 milyard dollar investisiya yönəldilməsi isə iqtisadi inkişafın davamlılığını təmin edən mühüm amillərdən biridir. Azərbaycanın nümunəvi iqtisadi inkişaf modelinin mühüm komponentləri sırasında respublikamızın strateji valyuta ehtiyatlarının mütəmadi olaraq artması, son olaraq 53 milyard ABŞ dollarını üstələməsi də xüsusi yer tutur. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycanın MDB məkanında birinci yerdə olması və digər faktlar, nailiyyətlər iqtisadi müstəqilliyi gücləndirən və beləliklə də, siyasi suverenliyin əsaslarını möhkəmləndirən amillərdəndir. Azərbaycan Prezidenti cənab İlham Əliyev deyib: ”Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir. Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir. Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün əlbəttə ki, bizim iqtisadi imkanımız olmalıdır””.

Vurğulanıb ki, iqtisadi müstəqilliyin və milli inkişafın təmin olunmasına paralel olaraq ordu quruculuğu strategiyasının müvəffəqiyyətlə icra olunması, müasir standartlar və yeni yanaşmalar əsasında Silahlı Qüvvələrin döyüş qabiliyyətinin, hərbi hazırlıq səviyyəsinin artırılması, maddi-texniki təchizatının gücləndirilməsi Azərbaycanın öz milli maraqlarını, suverenliyini döyüş meydanında - hərb səhnəsində təmin etməsini mümkün edib. Dövlət başçısının qeyd etdiyi kimi, əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. Azərbaycanın öz milli gücü vasitəsilə işğal faktını aradan qaldırması ilə artıq münaqişə tarixə qovuşub - müharibə geridə qalıb. İndi Avrasiyanın çox mühüm geostrateji məntəqələrindən olan Cənubi Qafqaz regionu postkonflikt mərhələsindədir. Azərbaycan isə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə start verib, Böyük Qayıdışın ən yüksək səviyyədə və qısa müddət ərzində təmin olunması üçün ardıcıl, məqsədyönlü işlər görülməkdədir. Bu, postmüharibə dövründə də Azərbaycan iqtisadiyyatının gücünü, yaxud ölkəmizin güclü iqtisadi potensialını əks etdirir.

*Ardı Səh. 7*

# "Qələbənin ilk ildönümü: Zəfər iqtisadiyyatının rolu və hədəfləri"

## YAP Mərkəzi Aparatında bu mövzuda konfrans keçirilib

Əvvəli Səh. 6

Xüsusən, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanından irəli gələn vəzifələrin icrası, iqtisadi potensialdan istifadə olunması milli inkişafın sürətlənməsinə təkan verəcək. Yeni bölgüyə əsasən 14 iqtisadi rayon sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının olması isə həm tarixi, həm mənəvi, həm iqtisadi, həm də siyasi baxımdan olduqca əhəmiyyətlidir.

Tahir Budaqov diqqətə çatdırıb ki, postmüharibə dövrünün mühüm hədəflərindən biri Azərbaycanın yaratdığı reallıqlar əsasında Cənubi Qafqaz regionunda yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşmasıdır: "Bu, siyasi, hərbi-strateji cəhətdən mühüm əhəmiyyətə malik olmaqla yanaşı, iqtisadi cəhətdən də faydalı və perspektivlidir. Yeni şəraitdə geosiyasi və geoiqtisadi işbirliyi imkanları təkcə bölgə xalqları və dövlətləri üçün deyil, bir çox dövlətlər, o cümlədən regional və beynəlxalq güc mərkəzləri üçün mühüm dividendlər vəd edir. Xüsusilə də, Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş formatda




əməkdaşlıq imkanlarının formalaşması, Azərbaycan başda olmaqla çoxşaxəli işbirliyində maraqlı olan dövlətlərin mühüm iqtisadi mənfəət qazanması deməkdir. Bütün bunlar isə Zəfər iqtisadiyyatımızın inkişafı, Azərbaycanın milli tərəqqisində yeni mərhələnin başlanmasıdır.

Nəticə etibarilə, milli maraqlara əsaslanan xarici siyasət kursunun, güclü iqtisadiyyat və ordu quruculuğunun həyata keçirilməsi, milli həmrəyliyin, xalq-Lider birliyinin təmin olunması və Azərbaycanın imkanlarının milli hədəflər uğrunda məqsədyönlü şəkildə səfərbər olunması nəticəsində qazanılan Böyük Qələbə ölkəmizi yeni strateji nailiyyətlərə və zirvələrə aparır. Şübhəsiz ki, postmüharibə mərhələsində həyata keçirilən strateji kurs Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsini, o cümlədən yeni iqtisadi nailiyyətlər qazanaraq milli gücünü daha da artırmasını təmin edəcək! Hər birinizi qarşıdan gələn Zəfər və Dövlət Bayrağı günləri ilə əlaqədar təbrik edir, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizə sülh və əminamanlıq, xalqımıza rifah və xoşbəxtlik arzu edirəm".

Tədbirdə "Rəqəmsal transformasiya və iqtisadi inkişaf" mövzusunda çıxış edən Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, müasir iqtisadiyyatın aparıcı qüvvəsi innovasiya və biliklərdir. Onun sözlərinə görə, Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində də prioritetlərdən biri yaradıcı və innovativ cəmiyyət quruculuğudur.

Nazir qeyd edib ki, keyfiyyətli, təhlükəsiz və səmərəli rəqəmsal transformasiya, eləcə də bu sahədə resurslardan effektiv istifadə in-




novasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunur: "Ölkələr rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin inkişafı vasitəsilə səmərəliliyin və şəffaflığın artırılmasına nail olublar. İqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası son illərdə Azərbaycanın qarşısında duran prioritet məsələlərdən birinə çevrilib. Ölkədə rəqəmsallaşma, informasiya və kommunikasiya texnologiyaları sahəsində yeni infrastruktur quruculuğu, müasir texnologiyaların tətbiqi və modernizasiyası sahəsində mühüm işlər görülüb. Azərbaycanın regionda rəqəmsal mərkəzə




çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır. Rəqəmsal transformasiya sahəsində həyata keçirilən dövlət siyasəti üzrə idarəetmə, əlaqələndirmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, kommersiya fəaliyyəti ilə yanaşı, dövlət və ictimai əhəmiyyət daşıyan funksiyaların effektiv həyata keçirilməsi tələb olunur".

R.Nəbiyev söyləyib ki, bu gün Azərbaycan Hökuməti rəqəmsal transformasiyanı innovasiya mühitinin aparıcı qüvvəsi kimi görməkdədir: "Əgər Azərbaycanın iqtisadiyyatı güclü olmasaydı, güclü texnologiyalar da əldə edə bilməzdik. Bütün dünyanın aparıcı ölkələrində ümumdaxili məhsulun 2,3 faizi elmi tədqiqatlara həsr olunur. Ancaq təəssüf ki, bu gün Azərbaycanda bu rəqəm istədiyimiz səviyyədə deyil. Qarşıya qoyulan məqsəd odur ki, elmi tədqiqatlara ayrılan vəsaitlərin həcmi iqtisadiyyatımızın potensialına xidmət etməsi üçün bir neçə dəfə artırılsın. Bizim baxışımız ondan ibarətdir ki, rəqəmsal transformasiya ilk öncə effektiv dövlət xidmətlərinin əhaliyə təqdim edilməsidir. Bunu ASAN Xidmətin timsalında görürük. Növbəti mərhələdə bu xidmətin virtual mühitə keçirilməsi, yəni rəqəmsallaşmasıdır ki, biz qısa müddətdə bu vəzifənin öhdəsindən gələcəyimizə inanırıq. Eyni zamanda, dövlət qurumları arasında olan münasibətlərin virtual məkana keçirilməsi də qarşıda dayanan vəzifələrdən biridir. Cənab Prezident tərəfindən Azərbaycanda rəqəmsal transformasiyanın konsepsiyasının hazırlanması ilə bağlı tapşırıq verilib. Tapşırığa uyğun olaraq müvafiq dövlət qurumları ilə birgə bu




sənədi hazırlamışıq. Yəqin ki, bu sənədin yaxın vaxtlarda təsdiqlənəcəyi gözlənilir. Onu da qeyd edim ki, 2024-cü ilin sonuna qədər Azərbaycanda genişzolaqlı internetlə təmin edilməmiş kənd qalmayacaq. Digər məqam isə insan resurslarının mövcudluğudur. Burada diqqət universitetlərimizin elmi-tədqiqat yönümlü olmasına yönəlməlidir".

R.Nəbiyev kibertəhlükəsizlik məsələlərinin də konsepsiyada öz əksini tapdığını diqqətə çatdırıb. Onun sözlərinə görə, görülən bütün işlər ölkə vətəndaşlarının rifahına xidmət edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı isə "Milli təhlükəsizlik və iqtisadi inkişaf" mövzusunda çıxış edib. V.Qasımlı çıxışında müstəqillik illərində milli iqtisadiyyatımızın keçdiyi mərhələlər haqqında ətraflı məlumat verib. O qeyd edib ki, ötən dövr ərzində ölkə iqtisadiyyatı 3 dəfədən çox artıb: "2016-cı ildə Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Strateji Yol Xəritələrinin uğurla icra olunması sosial-iqtisadi gücümüzü daha da artırır. Artıq Azərbaycan Avrasiya məkanında önəmli rola malik dövlətə çevrilib. Bütün bunlara ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasətin Prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində nail olmuşuq".

İcraçı direktor deyib ki, Azərbaycan tarixi Zəfərin qazanılması üçün 30 il ərzində böyük işlər görüb. Müharibənin başa çatması regionda yeni reallıqlar yaradıb və Azərbaycanın təşəbbüsləri ilə regionda güc mərkəzi yaranır. Bu, gələcəkdə qlobal gücə çevrilə bilər.

Maliyyə təhlükəsizliyi ilə bağlı məlumat verən V.Qasımlı diqqətə çatdırıb ki, Azərbaycanın xarici borcu ÜDM-nin 18.2 faizi həcmindədir: "Bu, yaxşı göstəricidir. Çünki dünya üzrə normativ göstərici 40 faizdir. Hazırda ölkəmizin strateji valyuta ehtiyatları 55 milyard dollara yaxınlaşıb. Bu fakt da ölkəmizin iqtisadi gücündən xəbər verir. Bütövlükdə, Azərbaycanın maliyyə-iqtisadi təhlükəsizliyi tam təmin olunub".

Tədbirdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində milli iqtisadiyyatın rolu" mövzusunda çıxış edərək Azərbaycanın müstəqilliyinin əsaslarının hələ 1970-ci illərdə ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib: "1969-cu ilə qədər keçmiş ittifaq miqyasında Azərbaycan ən geridə qalan respublikalardan biri idi. Amma ulu öndər Heydər Əliyev respublikamıza rəhbərliyə gəldikdən sonra qısa müddət ərzində Azərbaycan iqtisadi inkişaf baxımından keçmiş sovetlər birliyində öncül sıraya çıxdı. Məhz o dövrdə Azərbaycanın müstəqilliyinin təməlləri atıldı. Təəssüf ki, yaradılmış güclü iqtisadi baza müstəqilliyin ilk illərində dağıdıldı. 1992-ci ildə respublikada infilyasiyanın 1700 faiz olması acı mənzərənin göstəricisi idi. Lakin ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan inkişaf və tərəqqi yoluna çıxdı. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması tarixi hadisə oldu".

Komitə sədri xatırladıb ki, cənab İlham Əliyevin Prezident kimi ilk fərmanı ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı idi. Bu bir daha onu göstərir ki, dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun fikrincə, iqtisadi müstəqillik olmasa, hər hansı dövlətin müstəqilliyi mümkün deyil: "44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərin qazanılmasında iqtisadi gücümüz əsas rol oynadı. Bu müharibənin iqtisadiyyatımıza mənfi təsirini hiss etmədik. Qazanılan Zəfər Azərbaycanın iqtisadi inkişafı üçün yeni perspektivlər açır. Biz qarşıya qoyulan yeni hədəflərə nail olacağıq. Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan gələcəkdə daha böyük uğurlara imza atacaq".

Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov isə "İqtisadi inkişaf perspektivləri" mövzusunda çıxış edərək söyləyib ki, 44 günlük müharibədə Azərbaycan hərb tarixində yeni model tətbiq etdi və hazırda dünya ölkələri tərəfindən bu model təhlil olunur: "Müharibədən sonra Prezident İlham Əliyev yeni inkişaf modelləri təqdim etdi. "Ağıllı kənd", "ağıllı şəhər", "yaşıl enerji" konsepsiyası irəli sürülüb. Bu onu göstərir ki, Qarabağ müasir innovasiya mərkəzinə çevrilir".




Azərbaycan iqtisadiyyatında neft amilinin böyük rolu olduğunu deyən rektorun fikrincə, neft tükənən sərvət olduğu üçün iqtisadiyyatda müasir innovasiyalar tətbiq olunur: "Bu baxımdan, rəqəmsal iqtisadiyyat çox önəmlidir". Ə. Muradov çıxışında işğaldan azad olun-




muş ərazilərimizin iqtisadi potensialı barədə fikirlərini bildirib. O Qarabağın regional innovasiya mərkəzinə çevrilməsi ilə bağlı əsas hədəf və məqsədləri açıqlayıb, bu istiqamətdə infrastruktur, institusional və elm-təhsil istiqamətləri üzrə təkliflərini səsləndirib.

Konfransa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, postkonflikt dövründə ölkə iqtisadiyyatının inkişaf perspektivləri ilə bağlı bu tipli müzakirələrin aparılması faydalıdır. Konfransda ölkə iqtisadiyyatının dününə, bu gününə və gələcəyinə nəzər salındığını deyən Tahir Budaqov bir sıra təkliflərə də münasibət bildirib. Qeyd edib ki, rəqəmsal inkişafın qiymətləndirilməsi üçün Azərbaycanda yeni göstəricilər sistemi yaradılmalıdır: "Dövlət Statistika Komitəsinin sədri kimi bununla bağlı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirinə rəsmi müraciət etmişəm. Cəmi bir neçə ölkə bu sahədə addımlar atıb. Azərbaycan da bu prosesdə öndə olmalıdır".

YAP Sədrinin müavini vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan böyük Zəfər Azərbaycan dövləti və xalqı qarşısında yeni üfüqlər açdı: "Azərbaycan möhkəm təməllər üzərində dayanaraq gələcəkdə də yeni zəfərlər qazanmağa qadir olan ölkədir. Bu gün biz milli maraqlarımızın qorunmasına, müstəqil ölkəmizin daha da güclənməsinə xidmət edən yol ilə gedirik. Bu yolu ulu öndər Heydər Əliyev bizə ərmağan edib. Prezident İlham Əliyevin ətrafında sıx birləşərək bu yolla inamla irəliləyirik. Bu yol Azərbaycan üçün alternativi olmayan yeganə yoldur".

Sonda konfrans iştirakçıları adından 8 Noyabr - Zəfər Günü ilə əlaqədar siyasi partiyalara və beynəlxalq təşkilatlara müraciət qəbul olunub.

# Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin növbəti təzahürü - VIII Qlobal Bakı Forumu

**Bu gün ənənəvi Qlobal Bakı Forumu artıq dünya ictimaiyyətini maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi üçün platformaya çevrilib. Bu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-də "COVID-19-dan sonrakı dünya" mövzusunda keçirilən növbəti Qlobal Bakı Forumu bunun göstəricisidir. Qeyd edək ki, sayca 8-ci olan və noyabrın 6-dək davam edəcək Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də digər nüfuzlu qonaqlar iştirak edirlər.**

Tədbir çərçivəsində keçiriləcək panel iclaslarda "COVID-19-dan sonra yaranan yeni dünya nizamı", "Yeni dünya iqtisadiyyatı", "Yeni dövrdə sülh, təhlükəsizlik və insan hüquqları", "İqlim dəyişikliyi ilə mübarizə və qlobal enerji tələbatının qarşılanması", "Səhiyyə və insanların peyvənd edilməsi", "Qida və qida təhlükəsizliyinin təşviqi", "Gənclər danışır, biz dinləyirik", "Şərq tərəfdaşlığı və onun imkanları" mövzularında, həmçinin Avropa İttifaqı, Balkan regionu və Cənubi Qafqazdakı vəziyyətə dair müzakirələr aparılacaq.

### "Pandemiyanın başladığı ilk günlərdən Azərbaycan həm daxildə, həm beynəlxalq səviyyədə çox fəal işlədi"

"Pandemiya qlobal gündəlikdə bir nömrəli məsələdir. Biz pandemiya, postpandemiya dövrü haqqında danışdıq. Hətta tam aydın deyil biz postpandemiya dövrünə qədəm qoymuşuq, yoxsa yox. Çünki müxtəlif ölkələr fərqli yanaşmalar sərgiləyir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev VIII Qlobal Bakı Forumunun açılışında çıxışı zamanı söyləyib.Dövlətimizin başçısı qeyd edib ki, bu xəstəliyin başladığı ilk günlərdən etibarən Azərbaycan həm daxildə, həm beynəlxalq səviyyədə çox fəal işlədi: "Biz regionda ilk ölkələrdən biri idik ki, yaşı 18-dən yuxarı olan əhalisinin təxminən yarıdan çoxunu - 60 faizini iki doza peyvənddən keçirə bildik. Biz 13 yeni dövlət xəstəxanası açdıq. Demək olar ki, 4 minə yaxın çarpayı potensialı ilə bu təsisatlar hazırda pandemiyadan əziyyət çəkən çox sayda insanlara xidmət göstərir və indi pandemiya nəzarət altındadır".

Dövlət başçısı çıxışı zamanı bildirib ki, Qoşulmama Hərəkatının sədri kimi biz 30-dan artıq ölkəyə maliyyə və humanitar yardım etdik, bir sıra ölkələrə isə ödənişsiz peyvənd dozalarını çatdırdıq: "Həmçinin Dünya Səhiyyə Təşkilatına donor kimi 10 milyon ABŞ dolları həcmində maliyyə yardımı ayırdıq. Bu addımlar, eləcə də dünyanın aparıcı dövlətlərinin məsuliyyətli yanaşması məsələnin həllinə töhfə verə bilərdi".

### "Biz bu addımları atmaqda davam edəcəyik"

"Biz məhdudiyyətlərin yaratdığı çətinlikləri yumşaltmaq üçün ciddi tədbirlər gördük". Bunu Azərbaycan Prezidenti İlham Əliyev "COVID-19-dan sonrakı dünya" mövzusunda Qlobal Bakı Forumunun açılış mərasimində çıxışında deyib.

Dövlət başçısı bildirib ki, 2020-ci və 2021-ci illərdə sosial yardım paketləri yaradılıb: "O insanlar ki, öz iş yerlərini məhdudiyyətlər səbəbindən itirmişdilər, onlar üçün sosial paketlərə 2,9 milyard ABŞ dolları həcmində dövlət büdcəsindən vəsait ayrılmışdı. Biz bu addımları atmaqda davam edəcəyik. Çünki biz tamamilə yeni bir vəziyyətlə üzləşmiş insanlara yardım etməliyik".

Qeyd edək ki, bu gün ölkəmizin vaksinlə təmin olunmasının əsas səbəbi dövlət başçımızın güclü və uzaqgörən siyasətinin nəticəsidir. Azərbaycan öz vətəndaşlarını vaksinlə təmin edən ilk dövlətlərdən biridir ki, bu gün də birinciliyi qorumağa davam edir.

Məhz dövlət başçımızın güclü uzaqgörən siyasətinin nəticəsidir ki, bütün sahələrdə olduğu kimi, Azərbaycan pandemiyaya qarşı mübarizədə də elə ilk vaxtlardan dünya dövlətlərinin vaksinlə ədalətli şəkildə təmin olunmasını öz üzərinə götürən COVAX platforması ilə əməkdaşlıq edib. Hazırda Azərbaycan MBD dövlətləri arasında vaksinasiyadan keçənlərin sayına görə ilk yerdə olması Azərbaycanın istər iqtisadi, istərsə də siyasi cəhətdən güclü dövlət olmasının sübutudur.

### "27 il kağız üzərində qalan BMT qətnamələrini Azərbaycan özü həyata keçirdi"



Azərbaycan Prrezidenti çıxışı zamanı Ermənistan ilə Azərbaycan arasında davam münaqişə məsələsi ilə də bağlı bildirib ki, bu münaqişəni Azərbaycan özü həll etdi: "Mən hər dəfə Qlobal Bakı Forumunda Ermənistan ilə Azərbaycan arasında münaqişə məsələsini qaldırırdım və bu gün bildirmək istəyirəm ki, bu münaqişə həll olunub". Dövlət başçısı bildirib ki, münaqişəni Azərbaycan özü həll etdi: "Azərbaycan özü BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri həyata keçirdi. Bu qətnamələr erməni qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edirdi. Əfsuslar olsun ki, 27 il ərzində bu qətnamələr kağız üzərində qalırdı. Azərbaycan özü-öz ərazi bütövlüyünü bərpa etməsəydi, həmin qətnamələr daha 27 il də kağız üzərində qalardı".

### "Bu müharibə onu göstərdi ki, ədalət tez və ya gec Zəfər çalacaq"

Prezidenti İlham Əliyev VIII Qlobal Bakı Forumunun açılışında çıxış edərkən vurğulayıb ki, hazırda biz azad edilmiş əraziləri bərpa edirik, artıq genişmiqyaslı dövlət proqramı həyata keçirilir: "Ümid edirik ki, erməni işğalından əziyyət çəkmiş bir milyondan çox soydaşımızı, keçmiş qaçqın və məcburi köçkünləri öz yerlərinə qaytara biləcəyik. Bu müharibə onu göstərdi ki, tez və ya gec ədalət Zəfər çalacaq".

### "Azad olunmuş ərazilərin yerlə-yeksan edilməsi barbarlığın təzahürüdür"

Dövlət başçısı forumda Ermənistanın barbarlığı, vandallığı ilə bağlı bildirib ki, Ermənistan əsrlər boyu öz işğalçılıq siyasətini göstərib: "Noyabrın 9-da Ermənistan kapitulyasiya aktına imza atdı və müharibə başa çatdı. Həmçinin işğal altında qalan digər ərazilərdən çıxmaq cədvəli verildi. Azərbaycan xalqı bu tarixi Qələbəmizi qeyd edəcək".

Azad olunmuş ərazilərin tamamilə yerlə-yeksan olunduğunu vurğulayan dövlətimizin başçısı deyib ki, hətta Ermənistan bütün tarixi binaları, 67 məsciddən 65-ni dağıdıb, bütün ictimai binaları yerlə-yeksan edib. Bu, əslində, barbarlığın, vandallığın təzahürüdür.

### "Biz sülh danışıqlarına başlamağa və sülh müqaviləsi imzalamağa hazırıq"

"İndi postmünaqişə dövründəyik. Biz Ermənistana bir sıra təklifləri irəli sürmüşük ki, gəlin, sülh müqaviləsi üzərində işləməyə başlayaq". Bunu Azərbaycan Prezidenti İlham Əliyev "COVID-19-dan sonrakı dünya" mövzusunda Qlobal Bakı Forumunun açılış mərasimində çıxışında deyib.

Dövlət başçısı bildirib ki, çünki biz müharibə üzərində danışmaq yox, sülh haqqında, gələcək haqqında danışmaq fikrindəyik: "Əfsuslar olsun ki, bu təklif hələ ki, cavabını almayıb. Eyni zamanda biz təklif etdik ki, sərhədimizin demarkasiya və delimitasiyasına başlayaq, hər iki ölkənin ərazi bütövlüyü təmin edilsin. Bu da yenə də beynəlxalq hüquq normalarına, normal davranışa uyğundur. Əfsuslar olsun ki, bu məsələ də hələ ki, cavabını tapmayıb. Azərbaycan maksimal konstruktivlik göstərib. Baxmayaraq ki, 30 ilə yaxın işğal, barbar hərəkətlər və dağıntılar olub. Biz gələcəyə nəzər salmalıyıq. Biz öz gələcəyimizi - təhlükəsiz, proqnozlaşdırılan və genişmiqyaslı əməkdaşlığa hazır olan gələcəyi təmin etməliyik. Ola bilsin ki, bizim təkliflər haqqında siz də eşitmisiniz. Mənə elə gəlir hər bir şey Ermənistanın mövqeyindən asılı olacaq. Çünki bizim mövqeyimiz tamamilə aydındır. Mən bir daha qeyd edirəm ki, biz sülh danışıqlarına başlamağa hazırıq və sülh müqaviləsini imzalamağa hazırıq. Biz səhifəni çevirmək istəyirik və sərhədləri müəyyən etmək fikrindəyik. Görürsünüz ki, Ermənistandan cavab gəlmir. Demək olar ki, 1 ildir ki, onlar yenə də sükut saxlayırlar. Mənə elə gəlir ki, onlar Azərbaycanın konstruktiv mövqeyinə müqavimət göstərə bilməyəcəklər. Əgər danışıqlar aparılan illəri ərzində onlar bizə qulaq assaydı, özlərini normal aparsaydılar, bugünkü gün həmin bu vəziyyət yaranmazdı".

Bir sözlə, bütün bunlara əsasən deyə bilərik ki, əgər üçüncü minilliyin başlanğıcında Ulu Öndər Heydər Əliyev ölkəmizi müstəqilliyini itirmək təhlükəsindən qurtararaq yeni inkişaf mərhələsinə çıxardısa, Azərbaycan Prezidenti İlham Əliyev müasir Azərbaycanı dünyada söz sahibinə, etibarlı tərəfdaşa və modern dövlətə çevirib. Dövrün çağırışlarının tələblərini nəzərə alan, bütün beynəlxalq toplantılarda dünyaya sülh mesajı verən, ən islahatçı Prezident və ən əsası, Qalib Sərkərdə kimi adını tariximizə qızıl hərflərlə yazdıran İlham Əliyev həmişə üzərinə düşən barışdırıcı sülh missiyasını uğurla icra etməkdədir.

**RƏFİQƏ KAMALQIZI**

# YAP-ın Binəqədi və Nəsimi rayon təşkilatlarının nümayəndələri Hərbi Qənimətlər Parkını ziyarət ediblər



**Noyabrın 4-də Yeni Azərbaycan Partiyasının Binəqədi və Nəsimi rayon təşkilatlarının nümayəndələri 8 Noyabr - Zəfər Günü münasibətilə Hərbi Qənimətlər Parkını ziyarət ediblər.**

Ziyarət zamanı YAP-ın rayon təşkilatlarının nümayəndələrinə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində şanlı Azərbaycan Ordusunun zabit və əsgərlərinin qəhrəmanlığı, eləcə də döyüş meydanında məhv edilmiş düşmən texnikalarının nümunələri və s. qənimətlər barədə ətraflı məlumat verilib. Ziyarətçilər İkinci Qarabağ müharibəsində şanlı Qələbəmizin rəmzinə çevrilmiş Qənimətlər Parkında ”Qarabağ Azərbaycandır!” şüarı əks olunmuş kompozisiya, ermənilərin törədtdiyi müharibə cinayətləri, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə materiallar, Azərbaycan ərazisinə atılmış ”İsgəndər-M” raketinin qalıqları ilə tanış olublar.





YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov və YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov Hərbi Qənimətlər Parkını Azərbaycan Ordusunun Vətən müharibəsindəki şanlı Qələbəsinin əyani nümunəsi kimi dəyərləndiriblər.

YAP-ın nümayəndələri Hərbi Qənimətlər Parkından yüksək təəssüratlarla ayrılıblar.

# Hulusi Kılıç:

## “Heç bir ölkənin 44 gün ərzində torpaqları işğaldan azad etməsinə rast gəlinməyib”



**“Azərbaycanın 44 gün çəkən Vətən müharibəsi böyük tarixi zəfərlə nəticələndi”. Bu sözləri SİA-ya açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç deyib.**

Onun sözlərinə görə, bu zəfər cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə və onun Vətən sevgisi ilə reallaşdı: ”Azərbaycan xalqının dəstəyi, modern ordunun gücü və qəhrəmanlığı ilə, şəhidlərimizin qanları ilə biz torpaqlarımızı işğaldan azad etdik. Ona görə də bu gün biz çox qürurluyuq. Azərbaycan xalqı böyük qürur hissi keçirir. Zəfər bayramı çox fərqli bir bayramdır. Bu bayram təkcə Azərbaycanda yox, Türkiyənin və türk dünyasının bayramıdır. Bu Zəfər tarixi bütövlükdə türk dünyası üçün nümunədir. Heç bir ölkənin 44 gün ərzində torpaqları işğaldan azad etməsinə rast gəlinməyib. İgidlərimizin qəhrəmanlığı nəticəsində Şuşanı işğaldan azad etdik. Şuşanı işğaldan azad etmək çox önəmli idi və nəhayət 8 noyabr 2020-ci il tarixində biz Şuşanı işğaldan azad etdik. Bu 8 ayda işğaldan azad olunmuş ərazilərimizdə quruculuq işləri gedir. Çox qısa müddət ərzində Füzuli beynəlxalq hava limanı inşa edildi. Ayrıca Türkiyə dövlətinin və Türkiyə Cümhuriyyətinin prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın dəstəyi çox önəmli idi”.

***Arzu Qurbanzadə***

# Yaşayış minimumu 210 manat olacaq




Gələn il yaşayış minimumunun həddi 210 manat olacaq. SİA xəbər verir ki, bununla bağlı məsələ ”2022-ci il üçün yaşayış minimumu haqqında” qanun layihəsində əksini tapıb.

ANALİTİK + ŞƏRH

# Putinin dediyi xəritə:

## Əvvəllər verilən torpaqlar Azərbaycana geri qayıdır

Son zamanlar istər Azərbaycanda, istərsə də Ermənistanda danışılan ən çox mövzulardan biri də ölkə sərhədlərinin demarkasiyası və delimitasiyası ilə bağlıdır. Belə ki, bu yaxınlarda Rusiya prezidenti Vladimir Putinin Soçidəki çıxışı zamanı onun 1920-ci illərə aid xəritəsinin Rusiyanın Baş Qərargahında olduğunu deməsi, eləcə də sonrakı müddətdə Rusiyanın XİN rəsmisi Mariya Zaxarovanın ölkələr arasında demarkasiya və delimitasiya prosesinin başlanmasında israrlı olduğunu bəyan etməsi artıq belə qənaətə gəlməyə zəmin yaradır ki, proses çox yaxın vaxtlarda başlanacaq və bunun başqa yolu da yoxdur. Çünki münaqişənin tam şəkildə başa çatdığını rəsmi şəkildə təsdiq edən amillərdən biri də məhz sözügedən prosesin həyata keçirilməsidir. Digər tərəfdən, demarkasiya və delimitasiyadan sonra regionda iqtisadi maraqların təmin olunmasından tutmuş digər məsələlərə aid olan bütün problemlərin də həlli gözlənilir.

**Ermənistan rəhbərliyinin boş-boş və "müsbət yönlü" bəyanatları isə sözügedən məsələdə heç bir rol oynamır**

### Erməniləri təlaşlandıran hansı amillərdir?

Lakin sərhədlərin delimitasiyası və demarkasiyasına, həmçinin böyük sülh sazişini imzalamağa hazır olduğunu bəyan edən Azərbaycandan fərqli olaraq Ermənistan hələ də düşdüyü böhranlı vəziyyətdən öz səmərəsi üçün çıxış yollarını axtarır, müxtəlif bəhanələrlə prosesi uzatmağa çalışır. Ancaq belə davranışların özü də, əslində, Ermənistanın zərərinə işləyir. Ermənistan rəhbərliyinin boş-boş və ”müsbət yönlü” bəyanatları isə sözügedən məsələdə heç bir rol oynamır.

Bu arada, erməni ictimai rəyi sosial şəbəkələrdə də mövzu ilə bağlı müxtəlif fikirlərlə çıxışlar edir, fərziyyələr irəli sürürlər. Onlar azərbaycanlıların demarkasiya və delimitasiya məsələsinə sakit, təmkinli yanaşmasından fərqli olaraq narahat və təlaşlı olduqlarını gizlətmirlər. Bəs erməniləri təlaşlandıran hansı amillərdir? Onlar xəritənin harada olduğundan xəbərdardırlarmı və bu xəritəni görüblərmi? Yaxud, həmin xəritədə Azərbaycana aid sərhədlər hansı şəkildə cızılıb ki, erməni ictimai rəyi bundan bərk narahat olmağa başlayıb?

### Rizvan Hüseynov: “Sovet İttifaqının süquta uğramasına qədər Moskvanın göstərişi ilə Azərbaycan özünə məxsus ərazilərin müəyyən hissələrini Ermənistanın xeyrinə təhvil verirdi, bu isə on minlərlə hektar ərazilərdir”




SİA xəbər verir ki, mövzu ilə bağlı azərbaycanlı tarixçi, Qafqaz tarixi mərkəzinin direktoru, UNESCO-nun dosenti Rizvan Hüseynov maraqlı fikirləri ilə mətbuata danışıb. Onun sözlərinə görə, söhbət Rusiyanın Baş Qərargahının 1928-ci ildəki xəritəsindən gedir.

”Apardığımız araşdırmaların göstərdiyi kimi bu müddətə qədər dəqiq hərbi topoqrafik xəritələr olmayıb. Sərhədlərin demarkasiyası üçün internet məkanında gəzən xəritələr deyil, məhz bütün nöqtələri bir neçə metrə qədər dəqiqliyi ilə göstərən xəritələr lazımdır. SSRİ-nin ilk belə xəritəsi isə SSRİnin Baş Qərargahının 1928-ci ilə aid olan xəritəsidir”, deyə qeyd edən Rizvan Hüseynov xatırladıb ki, məhz həmin ildə üç Zaqafqaziya respublikalarının - Ermənistan, Gürcüstan və Azərbaycan SSR-nın yaradılması məsələsi qaldırılmışdı. Onun sözlərinə görə, bu xəritələrdə göstərilən Azərbaycanın ərazilərinin müəyyən bir hissəsi bu günün müasir Ermənistanın əraziləri olaraq göstərilir. SİTAT: ”Məsələ ondadır ki, Sovet İttifaqının süquta uğramasına qədər Moskvanın göstərişi ilə Azərbaycan özünə məxsus ərazilərin müəyyən hissələrini Ermənistanın xeyrinə təhvil verirdi, bu isə onminlərlə hektar ərazilərdir. 1928-ci ilin xəritəsi isə ən əvvəlki xəritədir və onun sayəsində biz demarkasiyanı məhz real Azərbaycan sərhədlərində həyata keçirə biləcəyik. Mövcud xəritə hazırkı zamanda Rusiya Federasiyasının Baş Qərargahında saxlanılır”.

Beləliklə, Ermənistan rəhbərliyinin və erməni ictimai rəyinin narahatlıqları və təlaşlarının nəyə görə baş qaldırdığını anlamaq elə də çətin deyil. Onlar onlara aid olmayan nə varsa, kiçik zərrəsinə qədər Azərbaycana qaytarmalı olacaqlar və bu na kimsənin də şübhəsi yoxdur. Hətta prosesi daha bir neçə ay uzatsalar belə, nəticə onların xeyrlərinə olmayacaq. Bu isə aksiomadır və qalır onun reallığa çevrilməsi.

***Rövşən RƏSULOV***

# “Ermənilər deyir ki, Moskva niyə müharibədə İrəvanı dəstəkləməyib, indi arbitr kimi çıxış edir”

## Politoloq:

## "Rusiya Bakı ilə İrəvan arasında ötən ilin noyabrında imzalanmış müqavilələrin bu ilin noyabrında əsl sülh müqaviləsinə çevrilməsində maraqlıdır"



”Ermənistan-Azərbaycan münasibətlərinin yaxın gələcəkdə həlli çətin ki, mümkün olsun. Hesab edirəm ki, tərəflərin barışması üçün birdən çox nəsil dəyişməlidir”. Rusiyalı siyasi ekspert Pavel Klaçkov ”Caliber” analitik mərkəzinə müsahibəsində belə deyib. Onun sözlərinə görə, hazırda Ermənistan cəmiyyətində məyusluq o qədər güclüdür ki, təvazökarlıqdan və 2-ci Qarabağ müharibəsinin nəticələrini tanımaqdan çox uzaqdır.

”Bəzi iqtisadi faydalar, rifah səviyyəsinin yüksəldilməsi, məsələn, iqtisadiyyatda, siyasətdə müəyyən irəliləyiş olarsa, bu tərəzinin digər gözü üstün ola bilər və bu, dolayısı ilə Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanmasına kömək edə bilər. İndiki reallıqlarda İrəvanın bəzi bəyanatlarına baxmayaraq, sülh sazişi yalnız erməni tərəfinin manipulyasiya predmetinə çevriləcək. Ona görə də qarşıdan gələn üçtərəfli sammitdən səmərəli nəticə gözləməyə ehtiyac yoxdur.

Buna baxmayaraq, aydındır ki, Ermənistanın baş naziri Nikol Paşinyan artıq bir müddətdir ki, sülhün Ermənistan üçün daha faydalı olduğunu müəyyən dərk edir və ölkənin iqtisadi inkişafı üçün imkanların açılmasına yönəlmiş uyğun diplomatiya nümayiş etdirir”.

Amma ekspert hesab edir ki, Cənubi Qafqazda sülh prosesinin möhkəmlənməsinə doğru irəliləmək üçün Paşinyan daxili siyasi problemlərin həllində çətinlikləri nəzərə alaraq öz mövqeyini qoruyub saxlamalıdır.

”Xüsusilə Ermənistanda silahlı qüvvələrdə aparılan təmizləmələr fonunda cəmiyyətin radikallaşması, millətçilik əhval-ruhiyyəsinin artması, silahlı üsyan təhlükəsi müşahidə olunur. Millətçilərlə bağlı bəzi problemlər var, onlar silah əldə edə bilərlər və ya artıq əldə edirlər ki, bu da Ermənistanda təhlükələrin dərəcəsini artırır. Eyni zamanda, Paşinyanın Ermənistan cəmiyyətində yaxşı dəstəyə malik olmasına, xaricdəki diaspora ilə şaxələnmiş əlaqələrə malik olmasına baxmayaraq, onun hakimiyyətdəki mövqeyi kifayət qədər güclü deyil. Qeyri-sabit daxili siyasi faktor Paşinyanı regional qərarlar qəbul etməkdə, o cümlədən Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması ilə bağlı ciddi şəkildə zəiflədir. Ona görə də Cənubi Qafqaz regionunda təhlükəsizlik və sabitliyin təminatçısı və əsas arbitr kimi məhz Moskvanın çıxış etdiyini nəzərə alsaq, Ermənistanla Azərbaycan və Türkiyə arasında münasibətlərin tənzimlənməsində Rusiyanın vasitəçi iştirakı unikaldır. Rusiya Bakı ilə İrəvan arasında ötən ilin noyabrında imzalanmış müqavilələrin bu ilin noyabrında əsl sülh müqaviləsinə çevrilməsində maraqlıdır.

Başa düşmək lazımdır ki, söhbət çox gərgin bir regiondan gedir, hətta tərəflərdən birinin cüzi təxribatı belə uzunmüddətli hərbi münaqişəyə gətirib çıxara bilər. Bu, regional siyasətin əsas oyunçularından biri kimi Azərbaycanla qonşu olan İranın timsalında özünü büruzə verdi. Fikrimcə, bütün dünya bir-birindən asılıdır, qonşu dövlətlər regional siyasət məsələlərində son dərəcə ehtiyatlı davranmalıdırlar, həddən artıq böyük ambisiyalar əks effekt verə bilər. Eyni zamanda, hər hansı bir dövlət üçün belə bir yanaşma heç bir şəkildə özünə inamı əngəlləməməlidir”-Pavel Klaçkov deyir.

Ekspert Ermənistandakı anti-Rusiya əhval-ruhiyyəsini də nəzərdən qaçırmayıb: ”İrəvanda və onun ətrafında anti-Rusiya əhval-ruhiyyəsinin aqressiv təzahürləri Moskvanın Rusiyanın özünün maraqlarına və Cənubi Qafqazda sabitliyə yönəlmiş balanslaşdırılmış siyasət yeritməsi, onun hərbi münaqişəyə qarışmaması ilə əlaqələndirilir. Deyilir ki, Moskva müharibə zamanı İrəvanı dəstəkləməyib, indi arbitr kimi çıxış edir. Rusiyanın bu mövqeyi Ermənistandakı ən radikal aqressiv ”ağıllara” uyğun gəlmir çünki, onlar da Rusiya sərhədləri ətrafında sabitliyi pozmaları üçün Qərb təşkilatları tərəfindən sıxışdırılır.

Rusiyanın özündə də erməni diasporlarının nümayəndələri arasında anti-Rusiya əhval-ruhiyyəsinin artması tendensiyası müşahidə olunur ki, bu, kifayət qədər sərt anti-Rusiya bəyanatlarının şahidi olanda mənim üçün ümumiyyətlə təəccüblü idi.

Ola bilsin ki, bəzi Qərb xüsusi xidmət orqanlarının məqsədyönlü hərəkətləri də müəyyən dərəcədə anti-Rusiya əhval-ruhiyyəsinin qızışmasına şərait yaradır. Ermənistanın baş nazirinin Qərbə baxan ikili mövqeyi bundan irəli gəlir. İki stulda oturmaq mümkün deyil. Bu, çox həssas bir mövqedir, hər an bu stulların arasına düşə bilərsiniz. Bunu Ermənistanda başa düşmələri lazımdır”.

***Tərcümə - Elçin Bayramlı***

## “Jurnalistlərimiz Vətən müharibəsinin gedişində əsl vətənpərvərlik nümayiş etdirdilər”



“8 noyabr Zəfər Günü Azərbaycan tarixinin ən möhtəşəm Qələbə bayramı kimi yaddaşlarda əbədi qalacaq. Bu zəfər günlərini yaşamaq, onun canlı şahidi olmaq ayrı bir qürur hissidir. Prezident İlham Əliyevin güclü siyasi iradəsi, uzaqgörənliyi, xalqımızın milli birliyi, Müzəffər ordumuzun gücü, şəhidlərimiz və qazilərimizin qanı-canı bahasına əldə olunan bu qələbə həm 30 illik işğal damğasını alnımızdan sildi, həm də bir milyondan artıq qaçqın və məcburi köçkünlərimizin yurd həsrətinə son qoydu”. ”Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova ”Səs” qəzetinə açıqlamasında belə deyib.

Onun sözlərinə görə, hər birimiz bu Qələbə sevincini yaşatdığına görə, Ali Baş Komandan, qalib sərkərdə Prezident İlham Əliyevə minnətdarıq: ”Məhz Onun liderlik keyfiyyətləri, sarsılmaz iradəsi xalqımızı müqəddəs amal uğrunda ”Dəmir Yumruq” ətrafında bir nəfər kimi birləşdirdi. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa edildi. Beynəlxalq səviyyədə dövlətimizin mövqeləri daha da gücləndi. Vətən Müharibəsi həm də bizə əsl dostlarımızın kim olduğunu göstərdi. Ermənilərin illər boyu yaratdıqları miflər darmadağın edildi. Prezidentin illər ərzində yorulmaz siyasi fəaliyyəti nəticəsində ərazi bütövlüyümüzün beynəlxalq təşkilatlar səviyyəsində dəfələrlə tanınması, qəbul edilən hüquqi sənədlər, qətnamələr, Azərbaycanın Qoşulmama Hərəkatı, BMT, İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu qurumlardakı mövqeyi haqq işimizdə mühüm rol oynadı”.

S.Seyidova onu da bildirdi ki, Zəfərimiz həm də Qarabağın heç bir zaman unudulmadığını, hətta bir dəfə də olsun o torpaqları görməyən gənc nəslin necə vətənpərvər ruhda böyüdüyünü bütün dünyaya nümayiş etdirdi: ”Artıq Kəlbəcər, Laçın, Şuşa, Qubadlı, Zəngilan Füzuli, Ağdam, Cəbrayılda sürətli bərpa və quruculuq işləri gedir. Bu torpaqlara yeni nəfəs, həyat qayıdır. Medianın, ictimaiyyət nümayəndələrinin çoxsaylı səfərləri təşkil edilir. Hər dəfə işğaldan azad edilən rayonlara səfər etdikcə tamamilə yer üzündən silinən doğma şəhərlərimizin küllərindən yenidən doğulduğunun şahidi oluruq. Böyük qayıdışa sayılı zaman qalıb. Görülən işlər şəhidlərimizin qanı ilə azad edilən bu torpaqların əsl sahiblərinin kim olduğunu hamıya göstərdi. Bu məsələdə medianın da rolu xüsusi vurğulanmalıdır. Jurnalistlərimiz Vətən müharibəsinin gedişində, ondan sonrakı dövrdə əsl vətənpərvərlik, peşəkarlıq nümayiş etdirdilər. Həmkarlarımız arasında vəzifə borcunu yerinə yetirərkən şəhid olanlar da oldu. Bir daha bu Zəfəri bizə yaşadan şəhidlərimizə Allah rəhmət eləsin”.

***G. Ağakərimova***

## “Qlobal Bakı Forumu artıq ənənə halı alıb”

“Artıq 8-ci Qlobal Bakı Forumu işə başlayıb. Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə ”COVID-19-dan sonrakı dünya” mövzusunda Qlobal Bakı Forumunun başlaması regionda yaranmış olan yeni vəziyyət üçün olduqca aktualdır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib. Onun sözlərinə görə, Bakı Forumuna qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən 300-ə yaxın qonaq canlı və onlayn qaydada qoşulub: ”Panellər formasında təşkil olunan iclaslar çərçivəsində COVID-19-dan sonra yaranan yeni dünya nizamı haqqında geniş müzakirələr aparılacaq. Qlobal Bakı Forumu artıq ənənə halı alıb və onun həm iştirakçılarının, həm də gündəliyindəki məsələlərin sayı və tərkibi ilbəil dəyişir”.

Deputat sözlərinə belə davam edib: ”Ölkəmiz bir sıra mühüm strateji layihələrin təşəbbüskarı, icraçısı və söz sahibidir. Qlobal Bakı Forumunda beynəlxalq maliyyə, iqtisadi və reytinq qurumlarının, həmçinin iri və məşhur şirkət, bank nümayəndələri, siyasi elita təmsilçiləri ilə görüşlər keçirilir ki, Azərbaycanda görülən işlər, mövcud iqtisadi durum nəzərə çatdırılır, əməkdaşlıq imkanları, istiqamətləri və perspektivləri müzakirə və müəyyən edilir”.

***Ayşən Vəli***

## “Nar” Zəfər Gününə həsr olunmuş “Yaşa, Vətən!” kommunikasiyasına start verir

“Nar” Zəfər Gününə həsr olunmuş ”Yaşa, Vətən!” kommunikasiyasına start verir. Belə ki, mobil operator Vətən müharibəsi nəticəsində Azərbaycan ordusunun qazandığı şanlı qələbənin ildönümü münasibətilə TV kanallarda təbrik videoçarxı yayımlayacaq və bir neçə əhəmiyyətli sosial layihələr icra edəcək. İlk layihələrdən biri Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhid ailələrindən olan tələbələrə dəstək olmaq məqsədilə təqaüd proqramının icrası olub. Layihənin məqsədi şəhid ailələrinin övladlarına təhsil həyatında dəstək olmaq, onların parlaq gələcəyinə töhfə verməkdir. Layihə çərçivəsində Naxçıvan Dövlət Universitetində təhsil alan 8 tələbə təhsil müddəti boyunca aylıq 200 AZN təqaüdlə təmin olunacaq.



”Nar” olaraq Vətən müharibəsinin ilk günlərindən ortaq amalımıza dəstək olmaq üçün müxtəlif layihələr həyata keçirmişik. Müharibədən sonrakı dövrdə də sosial layihələrimizi daha çox şəhid ailələrinə, qazilərə dəstək istiqamətində formalaşdırırıq. Bu gün də NDU ilə uzunmüddətli əməkdaşlığımız çərçivəsində tələbələri təhsil təqaüdü ilə təmin etməkdən böyük məmnuniyyət duyuruq”, - deyə ”Nar”ın İctimaiyyətlə Əlaqələr departamentinin rəhbəri Əziz Axundov bildirib. ”Nar”ın sosial layihələri və KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

# Əbədi qəlbimizdədir vətənin mərd oğulları!

## Vətən müharibəsi şəhidinin ailə üzvləri ziyarət olunub

YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev, Milli Məclisin deputatı Hikmət Babaoğlu və təşkilatın əməkdaşları Vətən müharibəsi şəhidi əsgər Sarıyev Samir Əli oğlunun ailə üzvlərini ziyarət ediblər. SİA-nın verdiyi məlumata görə, şəhidin ailə üzvləri ilə görüşdə, Müzəffər Ali Baş Komandan, Prezident İlham





Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi qələbədən söhbət açılaraq, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda Samir kimi igidlərimizin müharibə müddətində düşmənə əsl qəhrəmanlıq dərsi keçmələrindən danışılıb, bu möhtəşəm Zəfərin qazanılmasında və qələbəmizin əldə olunmasında öz layiqli töhfələrini verdikləri vurğulanıb və bunun hər birimizdə sonsuz qürur hissi doğurduğu qeyd olunub.

Şəhidin ailəsi hər zaman onlara göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirib.

Sarıyev Samir Əli oğlu 26 oktyabr 1993-cü ildə Şirvan şəhərində anadan olub. Əslən Zəngilan rayonu Malatkeşin kəndindən olan Samir Sarıyev 2009-cu ildə Laçın rayonu 9 saylı tam orta məktəbini bitirib. 2012- 2013-cü illərdə hərbi xidmətdə olub, xidmət etdiyi hərbi hissənin komandiri General-mayor Polad Həşimov tərəfindən 2013-cü ildə nümunəvi xidmətinə görə valideynlərinə təşəkkür məktubu göndərilib. 27 sentyabr 2020-ci il tarixdə başlayan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılan Samir Sarıyev Xocavənd və Füzuli rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 27 oktyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

15 noyabr 2020-ci ildə Suraxanı rayonu Dədə Qorqud qəbiristanlığında dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Sarıyev Samir Əli oğlu ölümündən sonra "Xocavəndin azad olunmasına görə" , "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.




## Samux rayonunda şəhid bulağının açılışı olub

Dünən Samux rayonunun Poylu kəndində İkinci Qarabağ müharibəsində şəhid olan Həsənov Pərviz Fərmayıl oğlunun adına tikilmiş xatirə bulağının açılışı olub. SİA xəbər verir ki, tədbirdə Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov, hüquq-mühafizə orqanlarının rəhbərləri,rayon ictimaiyyəti iştirak ediblər.

Xatirə bulağının açılışında çıxış edən Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev Pərviz Həsənovun timsalında 44 günlük qələbəmizdə payı olan bütün şəhidlərimizin qəhrəmanlıqlarını yüksək qiymətləndirdi. O, qeyd etdi ki, xalqımız və dövlətimiz şəhidlərimizin əziz xatirələrinə ehtiram göstərir, onların xatirəsini daim uca tutur. Ona görə də ölkəmizin hər yerində olduğu kimi, Samux rayonunda da Vətən müharibəsində qəhrəmancasına döyüşən, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsinə həsr olunmuş silsilə tədbirlər davamlı olaraq keçirilir.

## Nizami rayonunda şəhid Oqtay Ağabəyovun xatirə kompleksinin açılışı olub



Nizami rayonunda 44 günlük Vətən Müharibəsində şəhid olmuş Oqtay Ağabəyovun şəhadət günündə yaşadığı binanın qarşısında xatirə kompleksinin açılışı olub. SİA xəbər verir ki, mərasim iştirakçıları öncə bir dəqiqəlik sükutla şəhidlərin xatirəsini böyük ehtiramla yad ediblər.



Tədbirdə şəhidin anası Əlvadə Ağabəyova, Milli Məclisin deputatları Sədaqət Vəliyeva və Könül Nurullayeva, Nizami rayon İcra Hakimiyyəti başçısının müavini İldırım Mehdiyev, YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, Missiya Media Qrupunun rəhbəri Ramin Əhmədov, həmçinin, döyüş yoldaşları, dostları və başqaları şəhid haqqında xatirələrini, onun igidliyi, şücaəti barədə danışıblar.



Bildirilib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində bir yumruq olaraq düşmənin başını əzib və ərazi bütövlüyünü bərpa edib. Azərbaycanın dünyada nüfuzu və layiqli yeri Vətən müharibəsindəki Zəfərdən sonra daha da möhkəmlənib. Bu səbəbdən də Vətən üçün canından keçən qəhrəman oğul və qızların əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq. Qeyd edilib ki, şəhid ailələrinin, qazilərin problemlərinin, sosial-məişət məsələlərinin həlli dövlətimizin diqqəti mərkəzindədir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun əsgəri olan Oqtay Ağabəyov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı gedən döyüşlərdə vuruşub, böyük şücaət, igidlik nümayiş etdirib, şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Oqtay Ağabəyov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Sonra abidənin açılışı olub, önünə gül dəstələri düzülüb. Şəhidin ailəsi onlara göstərilən diqqət və qayğıya görə müzəffər Ali Baş Komandan İlham Əliyevə, I Vitse-prezident Mehriban xanım Əliyevaya və YAP rəhbərliyinə təşəkkürünü bildirib. Qeyd edək ki, xatirə kompleksi YAP Nizami rayon təşkilatının və Missiya Media Qrupun birgə dəstəyi ilə hazırlanıb.

## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları Şəhid ailəsini ziyarət ediblər

Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 4 noyabr 2021- ci il tarixdə 44 günlük Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Ağayrı kəndindən olan şəhid Nuri Xəyal Şakir oğlunun ildönümü ilə əlaqədar olaraq ailəsini ziyarət ediblər.





# İnsanlar niyə özündənrazı olur?



**Tərs və özündənrazı insanlar onlara verilən məsləhətləri dinləyirmiş kimi göstərsələr belə, həmişə bildikləri həqiqətlə hərəkət edirlər. Həmçinin, onlar inadkar və dikbaş olurlar.**

Uşaqların yeniyetməlik dönəmlərində analar bu kimi sözlərdən həddindən artıq çox istifadə edir. Tarixə baxdığımızda görürük ki, böyük işlərə imza atmış insanlar həmişə dikbaş olurlar. Bu nəticə analarımızın dedikləri ilə ziddiyyət təşkil edir. İnsanların dediyini kor-koranə qəbul etmək düzgün olmaz, hətta analar belə olsa.

Birbaşa dikbaşlıq etdiyiniz zaman diqqət etməmiz lazım olan tək məqam, getdiyimiz yolun düzgün olub-olmamasıdır. Çox vaxt həqiqət nisbidir. Başqa sözlə, zamana, yerə və ya insana görə dəyişə bilər.



Məsələn, İstanbulun fəthi və lampanın icad edilməsi kimi tarixin səhifələrinə qızıl hərflərlə yazılmış hadisələr və ixtiralar dikbaş və məqsədli insanlar tərəfindən olub. Bu cür nailiyyətlər çox vaxt ətraf mühitin mənfi düşüncələri, neqativ hallar və hər şeydən əvvəl insanın özü tərəfindən törədilir. Yəni, insan tənbəlliyinə rəğmən dikbaş olmaqla qalib gələ bilər.

Unutma, bu həyat sənindir və bu ömrün sonunda sən özünün qarşında hesab verəcəksən, başqa heç kimə yox. Buna görə də öz qərarlarınızı özünüz verin. Nə olursa-olsun, doğru bildiyin yoldan dönmə.



İnadkar insanlara həyatımızın bütün sahələrində rast gəlirik. İnadkar insanların bir çox xüsusiyyətləri var. Onlar sabit fikirlidirlər. Onlar öz ideyalarından yapışaraq, israrla dediklərinin yerinə yetirilməsini tələb edirlər. Özləri üçün etdiklərini hərtərəfli qiymətləndirirlər. Başqalarının nə düşündüyünün onlar üçün heç bir əhəmiyyəti yoxdur. Onlar heç vaxt təslim olmurlar. Üzr istəmədikləri kimi, inadkar olduqlarını da etiraf etmirlər. Onlar həmişə son sözü deyən olmaq istəyirlər. Onlar həmişə çıxış yolu tapır, qarşıdakını inadla imtina etməyə məcbur edirlər və son dərəcə qürurludurlar. Geri addım atmırlar. İnadkar insanları inandırmaq çətindir, çünki onlarda bütün bu xüsusiyyətlər var.

İnandırmaq bir bacarıqdır və bu, mütləq inkişaf etdirilə bilən bir konsepsiyadır. İnandırmaq qabiliyyəti olan insanlar həyatın bir çox sahələrində uğur qazanırlar. İnandırma, insanların fikirlərimizi, düşüncələrimizi və hisslərimizi təzyiq və məcburiyyət olmadan qəbul etmə sənətidir. İnadkar insanları inandırmaq çətin olsa da, qeyri-mümkün deyil.

## İnadkar insanları inandırmaq üçün bu yolu sınayın

Onu diqqətlə dinləyin. Fikirlərinə dəyər verdiyinizi göstərməklə onun tərəfində olun. Bu yolla onun əsəbiləşməsinin və inadının qarşısını almış olarsınız. Sakitcə ona öz fikrinizi təlqin edin.

## Nə deyəcəyinizi əvvəlcədən planlaşdırın

İnandıracağınız mövzu ilə bağlı əvvəlcədən öyrənmə fürsəti yaradın. Dediyiniz hər şeyə onun verə biləcəyi cavabı düşünün və dominant cavablar verə bilərsiniz. Sözlərin gücündən istifadə edin.

## Səmimi olun

Səmimi olmaq qarşı tərəfin bizə etibar etməsinə səbəb olur. Münasibətlərdə güvən olduqda, keçilməsi mümkün olmayan heç bir maneə yoxdur.

## Düzgün bədən dilindən istifadə edin

Davranışlarınız və cümlələrinizlə uyğun gələn bədən dilini istifadə edərkən dediklərini dəstəkləyirsiniz. Bu, qarşınızdakı insana əmin olduğunuzu göstərir və güvən hissi verir. Onların sizinlə rahat və təhlükəsiz hiss etmələrini təmin edin.

## Yumşaq və sakit bir səs tonu istifadə etməyə çalışın

Sakit və yumşaq səs tonu ilə səmimi danışın. Mühit gözəldir, siz sakit və arxayın olanda istər-istəməz sizi dinləyəcəklər. Onun fikirlərinizi fərqinə varmadan təsdiq etdiyini görəcəksiniz.

## Dəyişimi sevdirməyə çalışın

İnadkar insanlar həyatlarında nəyinsə dəyişəcəyindən qorxurlar. Onlar yeniliklərə və dəyişikliklərə açıq deyillər. Dəyişikliyin onların həyatına gətirəcəyi müsbət şeylərdən danışın.

SİA məsələ ilə bağlı araşdırma apararaq sosioloq və psixoloqların fikirlərini öyrənib.



**Psixoloq Zeynəb Eyyubova:** "İnsanlarda özündən razılığın və tərsliyinin səbəbi hər hansı travmadan dolayı ola bilər. Sadəcə biz insanlara fərdi yanaşaraq və hər biri ilə söhbət edib, suallar verib hansında hansı səbəbin niyə yaranmasını aydınlaşdıra bilərik.

Bəzi insanlar kiçik yaşlardan etibarən o qədər əziliblər, o qədər görülməyiblər, o qədər sözləri eşidilməyib ki, artıq onlarda bəzi problemlər yaranıb. Ona görə də onda özgüvən əksikliyindən, travmadan dolayı gələcəkdə hamını əzmə, özündən razılıq, özünü göstərmə tipində və yaxud tərsliyinin səbəbi o qədər ki uşaqlıqdan etibarən davranış pozuntusu olub ki, bu davranış pozuntuları da artıq elə bir vəziyyətə gətirib çıxarıb ki, o artıq tərsliklə öz səhv və ya düzlərini insanlara qarşı tətbiq edir.

Buradan insanlara səslənib belə deyirəm ki, əgər valideynsinizsə və artıq 3-4 yaşından etibarən uşaqlarınızda qeyri-adi eqo və ya əksinə qeyri-adi özgüvənsizlik, davranış pozuntuları, tərsliklər gördüyünüz vaxtda mütləq şəkildə bunu ya həll edin ya da psixoloqa mütləq müraciət edin".



**Sosioloq Lalə Mehralı isə məsələyə bu cür münasibət bildirib:** "Bəzən insanlar özündən razılıqla özünə dəyər verməyi və tərsliklə qəddarlığı səhv salırlar. İnsan var ki, qərarında inadçıdır, qərarının üzərində əminliklə durur, onu çox zaman tərs adlandırırlar. Yəni, tərsliklə qərarlılığı əvvəlcə ayırd etmək lazımdır. Qaldı ki, insanlarda tərslik xarakterinin formalaşmasına, bu "mənim dediyim dedikdir", "məndən başqa heç kim doğru bilmir", "ən doğrunu mən bilirəm" düşüncələri, xarakter də ola bilər.

Bir insan üçün onun etdiyi ən doğru əməldir, ən doğru hərəkət öz etdiyidir. Belə insanlar məsləhətə açıq olmurlar, kimsə ona məsləhət versin, kimsə öz təcrübəsini bölüşsün, kimsə ona doğru yol göstərsin, onlar bunu qəbul etmirlər. Onlar yalnız öz bildiklərini tətbiq edirlər. Çox zaman öz bildikləri onlara xeyir gətirməsə də, uğurlu olmasa da yenə öz bildiklərindən dönmürlər. Bu onlarda xarakterdir. Özündən razılıq məsələsinə gəlincə isə bu əslində həm yaxşı, həm pis xüsusiyyətdir. Yaxşı xüsusiyyətdir ona görə ki, insan özünü, mənliyini tanımalı və öz hərəkətlərində sərhəd qoyaraq özünü qiymətləndirməyi bacarmalıdır. Bəzən sərhəddi keçəndə özündən razılıq olur, sərhədə qədər bu özünə dəyər vermək olmalıdır. Müəyyən çərçivəyə qədər öz şəxsiyyətinə, öz mənliyinə dəyər verməlisən, amma, o çərçivələri aşdıqda artıq özündən razılıq, xudbinlik meydana çıxır. Bu insani keyfiyyət olsa belə müsbət insani keyfiyyət deyil. İnsan özündən razı bir yerə qədər ola bilər. Amma, müəyyən çərçivələr daxilində olmalıdır.

İnsan həmişə öyrənməyə, oxumağa, kimdənsə nəsə götürməyə, öyrənməyə açıq olmalıdır. Bu özündən kiçik də ola bilər, özündən böyük də ola bilər. Yəni, o misal var ağıl yaşda deyil başdadır. Bu o misaldır. İnsan 90 yaşında da olanda nə isə öyrənə bilər, insan 15 yaşında da olsa nəyi isə öyrədə bilər. Yəni, bu tamamilə dərrakə, şüur, ağıl məsələsidir. Yəni, konkret həmin misalın sözdə, əməldə təsviri deməkdir".

*Ayşən Vəli*

## "Qlobal Bakı Forumu tarixi əhəmiyyət daşıyır"

"Qlobal Bakı Forumu Azərbaycanın həm problemlərinin çatdırılması, həm də bu dövrdə Zəfər bayramı ərəfəsində Azərbaycanın Qarabağla bağlı konsepsiyasının, Qarabağın gələcəyi ilə bağlı baxışlarının çatdırılması baxımından önəmli bir forumdur". Bunu SİA-ya açıqlamasında deputat Fazil Mustafa deyib.



Onun sözlərinə görə, forumun əhəmiyyəti, Azərbaycana faydaları ondan ibarətdir ki, müxtəlif ölkələrdən insanlar gəlir və ölkəmizdə hansı proseslərin getdiyini görürlər. Məncə, burada hər hansı bir şəkildə fürsətləri dəyərləndirmək lazımdır. Burada olan çıxışlarda həm Azərbaycana aid məsələlər, həm də ümumi dünyaya aid məsələlər müzakirə olunub öz həllini tapacaq. Burada dünyanı əhatə edən covid-19 pandemiyasının həlli yolları, pandemiya dövründəki iqtisadiyyatda yaranan məsələlərin həlli yollarından danışılacaq. Bu kimi tədbirlər və ya forumlar ölkənin təbliğatı baxımından olduqca önəmlidir. Ümid edirəm ki, biz bunu səmərəli dəyərləndirərik".

*Abutel İlhamqızı*

## Beş uşağını öldürən anaya

## ÖMÜRLÜK CƏZA VERİLİB



Almaniya məhkəməsi özünün beş uşağını öldürən anaya ömürlük həbs cəzası verib. SİA xəbər verir ki, bu barədə DPA xəbər agentliyi məlumat yayıb.

Prokurorun sözlərinə görə, 6 uşaq anası olan 28 yaşlı qadın beş uşağa narkotik verib, sonra isə onları boğub. İstintaqın məlumatına görə, qadın sosial şəbəkələrdə ərinin yeni partnyoru ilə fotosunu görüb və kişini uşaqları bir daha görməyəcəyi ilə bağlı mesajla hədələdikdən sonra cinayəti törədib.

Qeyd olunur ki, uşaqların meyitləri çarpayılarında tapılıb. Qadın iddia edib ki, naməlum şəxs mənzilə girərək onu bağlayıb, mesaj yazmağa məcbur edib və uşaqları öldürüb. Məhkəmə-tibb ekspertləri qadında ciddi ruhi xəstəlik əlamətlərinin olmadığını təsdiqləyiblər. Qadının vəkili ona bəraət verilməsini istəyib.

Xatırladaq ki, 3 sentyabr 2020-ci ildə Alman polisi Solingendəki yaşayış binalarının birində mənzildə beş uşağın cəsədini tapıb. Onların Almaniya vətəndaşı olan anası altıncı uşağı, 11 yaşlı oğlu ilə gəldiyi Düsseldorfdakı qatar stansiyasında intihara cəhd edib. Qadın ağır yaralanıb və xəstəxanaya aparılıb, oğlan isə xəsarət almayıb. Ölən qardaş və bacıların yaşları bir ilə səkkiz arasında olub.

*İnam Hacıyev*

# Sosial şəbəkələr müxalifətin fəaliyyət prinsipinə çevrilib




Bu, bir fakt və reallıqdır ki, bu gün dünyamızda kifayət qədər yeniliklər və dəyişikliklər mövcuddur. Baxmayaraq ki, əksər dəyişikliklər insanların dünya görüşünün artmasına, cəmiyyətlərin inkişafına təsir edən amillərdəndir. Ancaq yeniliklər sırasında insanların həyatına təsir edən, düşüncəsini və baxışlarını dəyişən yeniliklər də var. Xüsusilə də, sosial şəbəkələr bir sıra məsələlərə görə, hər kəs tərəfindən qəbul edilən yenilik deyil. Yəni sosial şəbəkələrdən razı qalanlarla yanaşı, narazı olanlar da az deyil. Buna baxmayaraq həyatımızın ayrılmaz hissəsinə çevrilən internetdən istifadə edənlərin sayı sürətlə artmaqdadır. Hər bir istifadəçi internetdən müxtəlif məqsədlər üçün istifadə edir. Deyək ki, bir nəfər internetdən informasiya əldə etmək, ünsiyyət yaratmaq üçün istifadə edirsə, digəri video roliklərə baxmaq, fotolar paylaşmaq məqsədilə istifadə edir, başqa birisi isə şər və böhtanlar yaymaq, dezinformasiyalar paylaşmaq üçün internetə baş vurur. Dünyanın tanınmış internet layihələri üzrə marketinq araşdırmaları şirkəti olan "Comscore"in yaydığı məlumata görə, dünyada 15 yaşdan yuxarı 1,9 milyard internet istifadəçisinin üçdə ikisini əhatə edən 1,2 milyard insan sosial şəbəkə saytlarından istifadə edirlər. Təbii ki, 1,2 milyard insanlar arasında sosial şəbəkələrdən təxribatlar törətmək, dezinformasiyalar yaymaq, insanları hədəfə almaq üçün istifadə edənlər də var. Elə götürək ölkəmizi. Yəni ölkəmizdə də elə sosial şəbəkə istifadəçiləri var ki, işləri gücləri ancaq qeybət xarakterli məlumatlar yaymaq, canlı yayımlar təşkil etməklə milli maraqlara qarşı ittihamlar səsləndirməkdir. Bu kateqoriyadan olan məxluqlar sırasında daha çox müxalif düşərgənin təmsilçilərinə rast gəlmək olar.

**Müxalifət cəmiyyətdə hiddət və qəzəb doğuran yalanlar paylaşırlar**

Artıq sübuta yetirilməkdədir ki, sosial şəbəkələr də söyüş, təhqir, əxlaqsızlıqlarla dolu dırnaqarası siyasi mübarizə metodları ilə çıxış etmək AXCP, Müsavat, VİP, "Milli Şura" və bu kimi digər müxalif qurum rəhbərlərinin əsas fəaliyyət prinsipinə çevrilib. AXCP sədri Əli Kərimli və onun trolları demək olar ki, hər gün sosial şəbəkələrdə insanların heysiyyatına toxunan, cəmiyyətdə hiddət və qəzəb doğuran yalanlar paylaşım edirlər. BQP-nin sədri, millət vəkili Fazil Mustafa məsələyə münasibət bildirərkən Azərbaycan siyasətində söyüşün yolverilməz olduğunu, belə halların başında Ə.Kərimli dayandığını bildirir. Onun bildirdiyinə görə, satqın və riyakar olan Ə.Kərimli cəmiyyəti müxalifətdən iyrəndirir: "Cəmiyyətdə fikir formalaşdırır ki, ondan başqa müxalifət yoxdur. Buna görə də, cəmiyyətin AXCP deyilən qurumdan heç bir gözləntisi yoxdur. Sosial şəbəkələrdə Kərimli tərəfdarları daha aktiv görünürlər. İstənilən insanı çox asanlıqla qaralaya bilirlər. 24 ildən artıqdır ki, bu proses gedir. Çoxsaylı saxta profillər arxasında gizlənən cəbhəçilər sosial şəbəkələri söyüş məkanına çeviriblər".

**"Mübarizənin də əxlaqi normaları və qaydaları var"**

Söz yox ki, sosial şəbəkələrdə şər və böhtan xarakterli məlumatlar paylaşmaq müxalifət üçün heç də yad deyil. Yəni onlardan bundan başqa nəsə gözləməyə də dəyməz. Xaricdən maddi və mənəvi cəhətdən asılı olan Ə.Kərimli, Cəmil Həsənli hədyanlar yaymağa meyillidirlər. Bu onların apardıqları siyasətin ana xəttidir. Nəzərə almaq lazımdır ki, bu məxluqlar 44 günlük Vətən müharibəsi dövründə xalqla eyni mövqedən çıxış etmədilər. Dəfələrlə siyasi partiyalar Ermənistanın terror əməllərinə etiraz əlaməti olaraq birgə bəyanatlar imzalasalar da, AXCP və Müsavat bu birgə bəyanatlara qoşulmadılar. Bu gün işğaldan azad olunan Qarabağda geniş miqyaslı quruculuq və abadlıq işlərinin getdiyi bir zamanda Əli Kərimli özünə müvafiq düşüncəyə malik Sevinc Osmanqızının tv-sinə çıxaraq görülən işlərə kölgə salmağa çalışır. Hətta şəxsi maraqları naminə bütün müqəddəs dəyərləri tapdalayan və anti-Azərbaycan şəbəkə ilə sıx iş birliyinə gedən Ə.Kərimli utanıb çəkinmədən Füzuli Beynəlxalq Hava Limanının açılmasına ehtiyac olmadığını bildirir. AMİP funksioneri Əli Orucov "Səs" qəzetinə açıqlamasında təəssüf hissi ilə bildirdi ki, son zamanlar söyüşü, təhqiri, alçaltmaları mübarizə metodu kimi istifadə edənlərin sayı artmaqdadır: "Bu hal təkcə tərbiyə, mənəviyyat və əxlaq problemi deyil, həm də psixoloji problemdir. Mübarizənin də əxlaqi normaları və qaydaları var. Siyasətlə məşğul olanlar hər cür yüksək parametrlərinə görə seçilməli, etalon olmalıdırlar. Ola bilsin kimlərsə öz səviyyəsinə uyğun olaraq qeyri-standart yolu seçib, lakin bu, heç də o demək deyil ki, eyni üslubda cavab verilsin. Mitinqlər sosial sifarişdir. Cəmiyyətdə narazılıqların olması mümkündür. Bu narazılıqlar sosiallaşmırsa, kütləviləşmirsə, deməli bunun bir günahı da siyasi partiyaların üzərindədir. Kütləvi aksiyaları keçirmək üçün xeyli vaxt və böyük zəhmət, inandırma tələb edir, yoxsa yuxudan durar-durmaz mitinq elan edib, sonra da söyüşlə, təhqirlə mitinqə insanları gətirmək əsla mümkün deyil. O söyüş söyənlər bilməlidirlər ki, söyüşün də iki başı, iki tərəfi olur. Eyni qayda ilə də cavab verilə bilər və verilir də. Sosial şəbəkələrdən söyüşlər yağdıranların hamısı "psevdoad"lar adında gizlənmiş cəmiyyət üçün yaramaz insanlardır. İnanıram ki, bu cür xoşagəlməz tendensiyalar tezliklə aradan qaldırılacaq. Həmin şəxslər də öz məsuliyyətlərini dərk edəcəklər."

**Koordinasiyalı şəkildə qurulan iş birliyi**

Diqqət çəkən məqamlardan biri də ondan ibarətdir ki, xaricdəki "söyüş müxalifəti" əksər hallarda fəaliyyətlərini daxildəki, müxalif qüvvələrin istəklərinə əsasən qururlar. Fikir verin, davamlı olaraq Vidadi İsgəndərli, Orduxan Teymurxan, Tural Mirzəli, Sevinc Osmanqızı, Qənimət Zahid, Qurban Məmmədov və digərləri ermənipərəst mövqedən çıxış edib, Azərbaycanın milli və dövlətçilik maraqlarını təhqir etdikləri halda bir dəfə də olsun Ə.Kərimli, C.Həsənli, Ə.Əliyev və digərləri buna öz etirazlarını bildirməyiblər. Əksinə, məlum internet Tv-lərdə çıxışları zamanı hədyan paylaşanlara öz dəstəklərini nümayiş etdiriblər. Bu da onu təsdiq edir ki, əslində, xaricdə gizlənən "söyüş müxalifəti" ilə ölkəmizdəki dağıdıcı müxalif ünsürlər fəaliyyətlərini koordinasiyalı şəkildə həyata keçirirlər. Bəlkə də hər iki qütb eyni mərkəzdən maddi və mənəvi yardımlar alırlar. Ancaq el məsəlidir, "sirkə nə qədər tünd olsa, öz qabını çatladar". Dağıdıcı müxalifət və onlarla iş birliyində olan xaricdəki "söyüş müxalifəti" Azərbaycan dövlətçiliyinə qarşı şər və böhtanları ilə, öz ayaqlarının altını qazırlar. Həm də unutmaq olmaz ki, haqq-ədalət deyilən ali divan var. Bu baxımdan, gec və ya tez onlar etdikləri bəd əməllərə görə, o ali divanda oturacaqlar.

***İ.ƏLİYEV***

# "Dağıdıcı müxalifət uğurlarımızı azaltmağa çalışır"



"İkinci Qarabağ müharibəsində bütün siyasi qüvvələr hakimiyyətə, Ali Baş Komandana dəstək verdilər və xalqımızın arzuladığı birliyi nümayiş etdirdilər. Çox təəssüf ki, bu birliyə bəzi müxalifət qurumları qoşulmaq, xalqın istəyi ilə hesablaşmaq məcburiyyətində olduqlarına görə dəstək verdilər. Bu qurumlar əllərinə düşən ilk fürsətdən -10 noyabr bəyanatının imzalanmasından istifadə edərək hakimiyyətə qarşı hücumlara başladılar. Baxmayaraq ki, birliyə, həmrəyliyə bəyanat imzalandıqdan sonra daha çox ehtiyac var idi və siyasi partiyaların üzərinə son dərəcə böyük yük düşürdü. Məhz bu dövrdə dövləti, xalqı düşünən siyasətçilər qazandığımız qələbənin böyüklüyünü, dövlətimizə qarşı çıxan qüvvələrin məqsədlərini, mövcud təhlükələri insanlara izah etməli və birliyimizi qorumaq üçün əllərindən gələni etməli idilər". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, dağıdıcı müxalifət hakimiyyətə hücum etməyə, uğurlarımızı azaltmağa çalışır: "Bəzi müxalifət qurumlarının bu cür mövqe tutmasının əsas səbəbinin hakimiyyət uğrunda mübarizə olduğu hamıya yaxşı məlumdur. Qarabağ məsələsi bu qüvvələr üçün hakimiyyət uğrunda mübarizədə həmişə əsas bəhanə olub və xalqımız bu münasibətin nəticəsində 33 il ərzində çoxlu fəlakətlərlə üzləşib, torpaqlarımız işğal olunub, həmvətənlərimiz şəhid olub, yaralanıb, yurd-yuvasından didərgin düşüb. Onu da etiraf etmək lazımdır ki, hakimiyyətin ilk növbədə 44 günlük müharibə və ondan sonra yaranmış vəziyyətlə bağlı mövqeyinin xalqa çatdırılmasında ciddi problemlər mövcuddur və müxalifət bu məqamdan yararlanmağa çalışır. Əsas çətinlik ondan ibarətdir ki, dövlət başçısı hər şeyi açıq şəkildə demək imkanına malik deyil. Bu xalqın və dövlətin maraqlarını gözləmək, dünya siyasətini və mövcud reallıqları dərindən bilmək, tutduğu yüksək dövlət vəzifəsinin məsuliyyətini daim hiss etmək və s. amillərlə bağlıdır. Müxalifətin isə belə bir dərdi yoxdur. Əsas odur ki, onların dedikləri "dərin" fikirlər "xal"gətirsin, hazırlıqsız kütlənin xoşuna gəlsin, ona "oğulsan", deyənlərin və rəqibləri küçə söyüşləri ilə təhqir edənlərin sayı durmadan artsın. Şübhəsiz ki, bizim-hakimiyyəti təmsil edən və dəstəkləyən siyasilərin əsas çətinliyi təkcə bununla bağlı deyil. Bu gün, bu mövqeni müdafiə etmək yüksək hazırlıq,ciddi mütaliə tələb edir".

A.Səmədov onu da bildirib ki, əks mövqedə durmaq, hakimiyyəti "inandırıcı" tərzdə tənqid etmək üçün nə mütaliəyə, nə savada ehtiyac yoxdur: "Bazarda xırda ticarətlə məşğul olan bir həmvətənimizin öz həmkarları qarşısında az qala hər gün səsləndirdiyi fikirlərini oğurlayıb, ondan bir az aşağı səviyyədə söyləmək kifayətdir ki, "böyük siyasətçi" titulunu qazanasan və "xalqın nəzərində" avtoritetə çevriləsən. Burda ikinci mühüm məqam ortaya çıxır. Sayı onsuz da az olan dövlətçilik mövqeyində dayananların hakimiyyət strukturları ilə əlaqə saxlamaq, onlardan vaxtında zəruri məlumatları almaq imkanı varmı? Müvafiq qurumlar Prezidentin mövqeyini xalqa çatdırmaq, onunla çiyin-çiyinə mübarizə aparmaq istəyən insanlara kömək göstərmək barədə düşünürlərmi? Dövlət və hakimiyyətə yaxın televiziya kanallarına rəhbərlik edənlərin təbliğatı yüksək səviyyədə qurmaq, bütün potensialı bu işə cəlb etmək kimi bir "dərdi" varmı? Təəssüf ki, bu suallara təsdiqləyici cavab vermək qeyri-mümkündür. Təəssüf ki, təbliğatın, xalqla əlaqənin yüksək səviyyədə olmasına cavabdeh vəzifəli şəxslər işi qurmaq barədə deyil, daha çox öz kreslolarını itirməmək barədə düşünürlər. Bunun yolu isə çox sadədir: nə qədər faydalı olsa da fərqli fikir söyləyənləri yaxına buraxma, meydanı çox vaxt mənasız, ictimai rəyə heç bir təsiri olmayan, ancaq "xatasız" fikirlər söyləyənlərə ver və kresloda rahat otur. İctimai rəyi şikəst edən "liderlərin" prezidentə qarşı açdığı cəbhəni, xalqın hər gün aldadıldığını, çaşdırıldığını qətiyyən düşünmə. Məhz bu davranış hakimiyyət uğrunda mübarizədə hər vasitəni mümkün sayan müxalifətçilərin mövqeyini möhkəmləndirir, onların xalqı çaşdırmasına münbit şərait yaradır. Bu cür cəhdlərin qarşısını almaq üçün dövlətçilik mövqeyində dayanan bütün qüvvələr birləşməli, daxili və xarici düşmənlərin Azərbaycana qarşı planlarını pozmaq üçün əllərindən gələni etməyə çalışmalıdırlar".

***Gülyana***

# Sergey Markedonov “ikinci on noyabr” haqqında

## "Görüşlərsiz, danışıqlarsız və güzəştsiz situasiya yerindən tərpənməyəcək"

**Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Avroatlantik təhlükəsizlik araşdırmaları mərkəzinin aparıcı elmi işçisi Sergey Markedonov Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan Prezidenti İlham Əliyevlə mümkün görüşündən gələn gözləntiləri Bunin&Co teleqram-kanalına şərh edib.**




SİA xəbər verir ki, bu barədə danışan Markedonov bildirib ki, Azərbaycan Prezidenti ilə Ermənistanın baş nazirinin mümkün görüşləri ətrafında müzakirələr davam edir və oktyabrın 20-dən sonra bu barədə ”etibarlı mənbələr” tərəfindən mütəmadi fikirlər yer almaqdadır, hətta yaxın vaxtlarda sözügedən məsələ ilə bağlı sammitin də keçiriləcəyi iddia olunur. SİTAT: ”Bu versiyanın xeyrinə Vladimir Putinin ”Valday” beynəlxalq diskusiya klubunun plenar sessiyasındakı bəyanatı da şahidlik edir. Rusiyanın dövlət başçısı qeyd edib ki, Bakı və İrəvan Qarabağ münaqişəsinin həll edilməsi yönündə irəliləyişlərə nail olublar, lakin regionda uzunmüddətli tənzimləmə şəraitini yaratmaq lazımdır. Əgər belədirsə, bu cür şəraitin danışıqlarsız formalaşdırılması mümkün deyil”, Sergey Markedonov bildirib.

### Aleksandr İskəndəryan deyib: ”Dövlət başçılarının görüşlərinə şübhəsiz ki, hazırlıqlar gedir... Anlaşılan budur ki, görüşün keçirilməməsi mümkün deyil”

O, xatırladıb ki, oktyabrda dərc edilən məqalələrdə Əliyevlə Paşinyan arasındakı mümkün görüşün 8-9 noyabrda keçiriləcəyi bildirilirdi və həmin tarixlərə çox az bir zaman qalıb. Lakin rəsmi İrəvan danışıqlara hazırlıqla bağlı heç bir məlumata malik olmadığını sübut etməyə çalışır. Erməni hökumətinin aparat rəhbəri Araik Arutyunyan (Xankəndi separatçısı Araik Arutyunyanla səhv salmayaq - R.R.) noyabrın 3-də bəyan edib ki, Ermənistan XİN-nin əvvəlki şərhlərinə əlavə etməyə heç bir sözü yoxdur. Lakin nazirliyin rəsmi nümayəndəsi Vaan Unanyan da yayılmış informasiyanı inkar edib.

”Həmin vaxtda Qafqaz ölkələrinin hər iki lideri sərhədlərin demarkasiyası və delimitasiyası ilə bağlı müzakirələr üçün danışıqlara hazır olduqlarını bildiriblər”, deyə qeyd edən Rusiyalı politoloq İrəvanın Qafqaz İnstitutunun direktoru Aleksandr İskəndəryanın fikirlərini də xatırladıb. ”Bu, təsadüfi deyil, dövlət başçılarının görüşlərinə şübhəsiz ki, hazırlıqlar gedir... Anlaşılan budur ki, görüşün keçirilməməsi mümkün deyil. Ermənistanla Azərbaycanda bəzi suallar paketi var ki, onlar həll olunmalıdır. Və təbii ki, bu görüşün ortağı qismində Rusiya çıxış edəcək”, deyə Markedonov İskəndəryandan sitat gətirib, eləcə də bildirib ki, Qarabağda da məhz rus sülhməramlıları öz missiyalarını həyata keçirirlər: ”Məhz Moskva birgə bəyanatların təşəbbüskarı olub və bu implentasiyalar Putinin dediyi həmin ”uzunmüddətli tənzimlənmə şəraitini” yaratmalıdır”.

### Markedonov: “Qarabağ travması - bu, ötənilki müharibənin ağır nəticəsidir”

Onun sözlərinə görə, sual yalnız tarixin müəyyən olunmasında və görüş üçün qeyd edilən ”paketin” parametrlərindədir: ”Ermənistanın rəhbərliyi aydındır ki, bu mövzunu vaxtından əvvəl aktivləşdirmək istəmir. Qarabağ travması - bu, ötənilki müharibənin ağır nəticəsidir. Cəmiyyət yeni güzəştlərdən ehtiyat edir və bu günə qədər edilən güzəşətləri cəmiyyət qəbul etmir, əlavə kompromislərdən isə qorxur. Əlbəttə, bu cür fobiyalar həm də daxili siyasi səbəblərə malikdirlər. ”İkinci on noyabr” hiss olunarsa, müxalifət bu məsələ ilə barışmayacaq. Lakin həqiqət həm də budur ki, görüşlərsiz, danışıqlarsız və güzəştsiz situasiya yerindən tərpənməyəcək”, Markedonov qeyd edib.

*Rövşən RƏSULOV*

# Hərbi ekspert:

## ABŞ Rusiyaya hücum etmək üçün ekologiyadan silah kimi istifadə edir



**Hərbi ekspert İqor Korotçenko bildirib ki, ABŞ iqlim dəyişikliyi ilə mübarizə bəhanəsi ilə Rusiyaya qarşı məkrli plan hazırlayıb. SİA xəbər verir ki, bu barədə Rusiyanın ”Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko ”60 dəqiqə” siyasi tok-şousunun efirində məlumat verib. ”Ətraf mühitin ekoloji vəziyyətinin qayğısına qalmaq, sadəcə, Pentaqonda örtük kimi istifadə olunan ”əncir yarpağı”dır. Əslində, Vaşinqton Rusiyaya qarşı növbəti hücuma hazırlaşır” - ekspert bildirib.**

Hərbi ekspertin belə sözləri əsassız deyil. Artıq ətraf mühitin qorunmasından danışan Ağ Ev Pekinə və Moskvaya qarşı yönəlmiş maraqlarını həyata keçirməyə çalışır. Korotçenko hesab edir ki, çox güman ki, iqlim proqramı nə vaxtsa NATO-nun hərbi doktrinasında dəyişiklik tələb edəcək, onun köməyi ilə dövlətlər ”nizam-intizamı pozanlara” təsir göstərə biləcəklər.

Belə ki, Pentaqon artıq Rusiya qarşısında enerji resurslarının satışını məhdudlaşdırmaq və Arktika zonasının inkişafını dayandırmaq tələblərini irəli sürüb. Bundan əlavə, ekspert deyir ki, ABŞ ”planetin çiçəklənməsi naminə” Moskvaya qarşı təcavüzünə haqq qazandırmağa çalışır: ”Amerikalıların birdən-birə iqlimdən narahat olan sadəlövh axmaqlar olduğunu düşünmək axmaqlıqdır. Bu iqlim siyasətinin pərdəsi altında sırf praqmatik hesablama gizlənir- Rusiyanın karbohidrogen ixracına zərbə vurmaq, Arktika sərvətlərinin inkişafının qarşısını almaq və s. İstifadə olunan ekrana və əsas hədəfə görə bunu genişmiqyaslı iqlim hücumu adlandırmaq olar”.

Hərbi ekspertin sözlərinə görə, Vaşinqton administrasiyasının sözləri onun hərəkətlərinə uyğun gəlmir. Ekologiyanı müdafiə edən Birləşmiş Ştatlar nüvə bombalamasının mümkünlüyü ilə bağlı tezisdən əl çəkməyə tələsmir, ondan əleyhdarları üçün ən güclü arqument kimi istifadə edir.

*Tərcümə - Elçin*



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Bayraq olub Vətən üçün dalğalanırlar

### Zəfər tariximizin yazılmasında qələmləri silah, qanları mürəkkəb oldu

Onlar gənc və həyat eşqi ilə yanan, gələcəklərinə böyük ümidlər bəsləyən, öz nağıl dünyaları olan gənclərimiz idilər və ən əsası, onlar VƏTƏNPƏRVƏR övladlar idilər - sadə insanlarımızın, ”boyuna qurban, oğul” deyib, boybuxunlarına fəxrlə baxdıqları ata və analarımızın yetişdirdikləri övladları...

Onlar bacı qeyrəti çəkən qardaşlar, yenicə ev-eşik qurub ailə yaradan ərlər, doyunca övlad qoxusu ala bilməyən atalar və valideynlərinin israrlarına baxmayaraq, ”hələ tezdir, qoy əlim iş-güc tutsun sonra evlənərəm” deyən balalar, həm də sevgililərinə son sözlərini deyib, Vətən müharibəsinə yollanan çiçəkləri burunlarında olan oğullar...

2020-ci ilin 27 sentyabr tarixinə qədər onlar ayrı cür yaşayırdılar, Vətən müharibəsi başlayan günə qədər onlar öz həyat axarlarına düşərək xəyallarını qurmaqda, ümidlərinin gerçəkləşməsinə inanmaqda davam edirdilər. Çünki hər şey qabaqda idi: təhsil alanlar və ya təhsil almağı düşünənlər, evlənməyə hazırlaşanlar, yaxud nişanlılarının barmaq ölçülərini götürənlər və ciblərinə uyğun qiymətə nişan üzüyünü almaq üçün dükanları qarış-qarış gəzənlər, ya da uşaqlarının əllərindən tutub ilk dəfə məktəbə aparanlar, həm də övladlarının dünyaya gəlişlərini gözləyənlər...

### Həmin oğullarımız ki, zaman-zaman ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ şüarlarını çağırmaqla sanki şəhid olacaqları günlərini səbirsizliklə gözləyirmişlər

Lakin bu oğullarımızın düşüncələrində ən ümdə söz ÖNCƏ VƏTƏN idi. Onların arasında peşəkar hərbçilərdən tutmuş yenicə hərbi xidmətlərindən dönüb həyata atılanlara qədər, tələbələrdən tutmuş həkimlərə qədər, müəllimlərdən tutmuş sürücülərə qədər bütün peşələrin sahibləri var idi. Onlar 27 sentyabr 2020-ci il tarixindən etibarən bir-birindən fərqlənməyən cəbhə qardaşlarına çevrilmişdilər və Qarabağımızın azadlığı uğrunda bütün planlarını, düşüncə və xəyallarını bükub-qoymuşdular bir kənara, ”İnşaAllah sağ qalaram, həll edərəm”, deyib yollanmışdılar hərbi komissarlıqların qarşısında toplaşan və cəbhəyə getmək üçün alışıb-yanan digər qardaşlarının yanlarına.

Düz 44 gün onlar canlarını, qanlarını Ana Vətən torpağı uğrunda, namus və qeyrət üçün fəda etdilər, BİR ÖLDÜLƏR, MİN DİRİLDİLƏR, mənfur düşmənin canına vəlvələ saldılar, müqəddəs torpaqlarımızı murdarlayan yuvalarına od qoydular, baxmayaraq ki, özləri də əbədi yaşama doğru getdilər və ŞƏHİDLİK ZRVƏSİNƏ yüksəldilər. Həmin oğullarımız ki, zaman-zaman ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ şüarlarını çağırmaqla sanki şəhid olacaqları günlərini səbirsizliklə gözləyirmişlər. Zəfər tariximizin yazılmasında qələmləri silah, qanları mürəkkəb oldu.

### Vətən sizə əmanət idi, siz bu əmanətə sahib çıxdınız, indi də sizlərin əmanətlərinizi qorumaq bizim həm mənəvi, həm də vicdan borcumuzdur!

Bu gün onlar - əbədiyyət yolçuluğuna çıxan ərənlərimiz, igid balalarımız işğaldan azad edilmiş torpaqlarımızda dalğalanan Azərbaycan bayrağının hər nöqtəsində yaşayırlar, yüksək zirvələrdən azad Qarabağımıza doğru baxırlar, bayraq olub Vətən üçün dalğalanırlar. Və bu gün onların bizlərə qoyduqları əmanətləri məhz bizlərin qeyrəti və namusudur. Heç vaxt ölməyən, diri olan şəhidlərimizin əmanətlərini qorumaq isə bizim şərəf və ləyaqətimizdir. Azərbaycanımızın bütövlüyü uğrunda ”uf” demədən canlarını fəda edən qardaşlarımız, övladlarımız, ərənlərimiz, rahat uyuyun uğrunda can verdiyiniz Vətən torpaqlarında, Vətən sizə əmanət idi, siz bu əmanətə sahib çıxdınız, indi də sizlərin əmanətlərinizi qorumaq bizim həm mənəvi, həm də vicdan borcumuzdur!

# SSRİ BAŞ PROKURORLUĞUNUN KEÇMİŞ MÜSTƏNTİQİ: "AZƏRBAYCANIN QƏLƏBƏSİ ƏDALƏTİN TƏNTƏNƏSİDİR"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi



## Vladimir Kaliniçenko: "Ermənistanda millətçiliyin təzahürü məni heyrətləndirdi, azərbaycanlılar arasında bunu hiss etmədim"

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**SSRİ Baş Prokurorluğunun keçmiş müstəntiqi, rusiyalı hüquqşünas Vladimir Kaliniçenko "Caliber" analitik mərkəzinə müsahibəsində Qarabağ münaqişəsinin başlaması dövrlərindən xatirələri və Azərbaycana səfəri ilə bağlı təəssüratları ilə bağlı çox maraqlı məqamları deyib. Müsahibəni oxucularımıza təqdim edirik.**

ARAYIŞ: Vladimir İvanoviç Kaliniçenko 1947-ci ildə anadan olub. 1971-ci ildə Xarkov Hüquq İnstitutunu bitirib. Rayon prokurorluğunun müstəntiqi, istintaq şöbəsinin prokuroru, prokuror-kriminalist vəzifələrində çalışıb. Beş il ərzində o, qəsdən adam öldürmələrin açılması üzrə istintaq-əməliyyat qrupuna rəhbərlik edib. 1980-ci ildən- SSRİ Baş Prokuroru yanında müstəntiq, xüsusilə, mühüm işlər üzrə böyük müstəntiq kimi işləyib. O, 1992-ci ildə SSRİ Prokurorluğunun ləğvi ilə əlaqədar Xüsusi Əhəmiyyətli İşlərin Araşdırılması İdarəsinin çevik reaksiya şöbəsi rəisinin 1-ci müavini vəzifəsindən istefa verib. Onun iş təcrübəsinə SSRİ Balıqçılıq Nazirliyində, Soçi-Krasnodar ərazisində rüşvətxorluq halları, Özbəkistanda "pambıq", Qazaxıstanda təsərrüfat və partiya rəhbərlərinin rüşvətxorluq halları, "Jdanovskaya" metrostansiyasında SSRİ DTK-nın yüksək rütbəli zabitinin qətli, Sumqayıt hadisələri s. və bir çox başqaları daxildir. III dərəcəli dövlət ədliyyə müşaviridir. "Şərəf Nişanı" ordeni ilə təltif edilib.

***- Vladimir İvanoviç, siz Qarabağ münaqişəsinin səbəbi və tarixi ilə yaxşı tanışsınız. Qələbə və Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə başa çatan Azərbaycan Vətən Müharibəsinin başlamasına münasibətiniz necə oldu?***

- Başqa şeydən başlayacağam. 1979-cu ilin mayında Azərbaycanda prokuror Qambay Məmmədov cinayət işi aparırdı. SSRİ Baş prokuroru müavininin göstərişi ilə həmin ilin mayında Bakıya gəldim. Nəriman Ağayevlə oteldə qalmışam, özü də Füzulidəndir. Deməli, Sabunçu stansiyasında müstəntiqlərlə oturmuşdum, orada ofisim var idi. İş o qədər böyük idi ki, ittifaqın hər yerindən müstəntiqləri cəlb etmək lazım idi. Həmin müddətdə Azərbaycanın yarısını gəzdim, o vaxtkı DQMV-də, Füzulidə, Ağdamda, Ağcabədidə oldum və təbii ki, orada yalnız azərbaycanlıların yaşadığını gördüm.

Yeri gəlmişkən, mövzudan bir az kənara çəkilirəm. Bir neçə il əvvəl poliklinikada erməni həkimin qəbuluna düşmüşdüm. O, mənim kim olduğumu bildiyi üçün mənə deməyə başladı ki, azərbaycanlıların davranışından qəzəblənib, deyirlər, DQMV-də bütün yazılar Azərbaycan və rus dillərində olub. Eşitdiyim yalanlara təəccübləndim və ona kəskin cavab verdim, 1979-cu ildə orada olmasaydım, bəlkə də inanardım. Amma mən orada idim və hər şeyi öz gözlərimlə gördüm. Qarabağda bütün vilayət partiya komitəsi ermənilərdən ibarət idi, yazılar hamısı rus və ermənicə idi. Ermənilər Stepanakertdə (Xankəndi - red.) kompakt yaşayırdılar. Üstəlik, Azərbaycanda rəhbərlikdə çoxlu erməni var idi- o illərdə həm Mərkəzi Komitədə, həm də Nazirlər Sovetində 30-40 erməni yaxşı vəzifələrdə işləyirdi. Ermənilər o vaxt işlədiyim prokurorluqda da var idilər.

1980-ci illərin sonunda mən Spitakda cinayət işini araşdırırdım, tez-tez İrəvana, Bakıya gedirdim. Mən Sumqayıt hadisələri ilə məşğul olanda sonradan Azərbaycanın baş prokuroru olmuş İsmət Qayıbovla çox yaxın dost olmuşam. 1991-ci ilin noyabrında Qarabağın Qarakənd kəndi üzərində vertolyotun vurulması nəticəsində faciəli şəkildə həlak olub.

Ona görə də təbii ki, hər şeyi mükəmməl başa düşdüm. Mən şübhə etmirdim ki, Qarabağın qaytarılması zaman məsələsidir, çünki azərbaycanlılar bu torpaqların itirilməsinə heç vaxt dözməyəcəklər. Bunu deyəcəyəm: Birinci Qarabağ müharibəsi zamanı ermənilərin Azərbaycan ordusunun öhdəsindən gələcəyinə inanmırdım. Amma baş verənlər əksinə oldu.

Keçən ilki müharibə haqqında. Şübhə etmirdim ki, belə olacaq, Azərbaycan buna diqqətlə hazırlaşırdı və nəticəsi özünü çox gözlətmədi. Şəxsən Rusiya vətəndaşı və milliyyətcə ukrain olan və 1979-cu ildən bu prosesləri yaşayan mənim üçün keçən ilki müharibə ədalətin bərpası idi. Bəli, məhz belədir- son müharibə və Azərbaycanın ərazi bütövlüyünün bərpası mənim üçün Azərbaycan sakinləri üçün ədalətin təntənəsi kimi qəbul edilir. Mən o rayonlarda olanda orada erməni ailələri görməmişdim. Bunlar sırf Azərbaycan rayonları idi. Və mən millətçiliyin təzahürünün nə olduğunu mükəmməl başa düşdüm.

***- Rusiya prezidenti Vladimir Putin müsahibələrinin birində dedi ki, Qarabağ problemi guya Sumqayıt hadisələrindən başlayıb. Siz də belə düşünürsünüz?***

- Yox. Rəsmi rəqəmlər var. 1987 və ya 1988-ci illərdə Qorbaçov Zori Balayan, Silva Kaputikyan və onlara qoşulmuş, sonra özünü etnoqraf adlandıran Qalina Starovoytovadan ibarət erməni nümayəndə heyətini qəbul etdi. Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırdılar. Qorbaçov bu fikri dəstəklədi və əminliklə dedi ki, belə bir problem var. Mən başa düşürdüm ki, bu ideya erməni millətçilərinin beynindədir, amma onu həll etmək mümkün deyildi.

Sumqayıt hadisələri Dağlıq Qarabağ hadisələrindən sonra, ermənilər 200 min azərbaycanlını öz ərazilərindən qovmağa başlayandan sonra başlayıb və bu fakt hamıya məlumdur. Onlardan neçəsinin Azərbaycana gələn yollarda həlak olduğunu heç kim bilmir. Mən Sumqayıt hadisələri ilə məşğul olanda onlar artıq Bakıda idilər- mənzilsiz, pulsuz, əşyasız.

***- Müharibə bitdi. Tərəflər sülh müqaviləsinin imzalanmasına, sərhədin demarkasiyası və delimitasiyası prosesinə və kommunikasiyaların açılmasına hazırlaşır. Sizcə, Azərbaycan erməni hərbi cinayətkarlarını dinc əhaliyə qarşı törətdikləri vəhşiliklərə görə tribunala verə bilərmi?***

- Mən şübhə edirəm ki, bu, edilə bilər münasibətlərin daha da kəskinləşməməsi üçün. İndi hər şey sakitdir. Hər iki tərəfin sakitləşməsi lazımdır. Törədilən cinayətlərlə bağlı məsələlər davamlı qaldırılarsa, münasibətlər daha da pisləşəcək. İkinci Dünya Müharibəsinin tarixini xatırlayaq, 3 qalib dövlət və onlara qoşulan Fransa beynəlxalq tribunal yaratmaq qərarına gəldilər. Sonra hərbi cinayətkarların məsuliyyətə cəlb edilməsi məsələsi özözünə ortaya çıxdı: məğlub olanların taleyini 3 qalib dövlət həll etdi.

Bu vəziyyətdə bu yaranın yenidən açılmaması daha yaxşıdır. İstək və niyyət olsa, hər şey qanuna uyğun olacaq.

***- Azərbaycanda sizə necə münasibət bəsləyirdilər, ən çox nəyi xatırlayırsınız?***

- Azərbaycanda məni Ukraynanın Zaporojye vilayətinin prokuror-kriminalisti kimi qəbul etdilər. Qəbul çox mehriban və qonaqpərvər idi.



Mən Azərbaycanın bir çox bölgələrində olmuşam və hər yerdə yerli sakinlər tərəfindən yalnız isti münasibət və hörmətlə qarşılaşmışam. Ermənistanda da belə idi, amma məni təəccübləndirən yeganə şey millətçiliyin təzahürü idi, azərbaycanlılar arasında belə bir şey görmədim. Bu erməni millətçiliyi bəzən sakit, bəzən də çox kəskin və qabarıq şəkildə özünü göstərirdi.

1989-cu ildə azərbaycanlı dostlarım ermənilərin Bakını, Azərbaycanı tərk etməsinə kömək edib, onları gizlətdilər. Bütün bunlar mənim gözümün qabağında oldu. Baxın, istintaqda bizə ən çox kim kömək etdi? Bəli, Sovet İttifaqının hər yerindən çoxlu əməliyyatçılar var idi, cinayətkarları axtarırdıq, amma əsas işi azərbaycanlı əməliyyatçılar görürdü. Bizə kömək etdilər, çünki bilirdilər ki, həqiqətən də cinayətkarları axtarırıq.

***- Yenidən Bakıya gəlmək istərdinizmi?***

- Təəssüf ki, yaşıma görə artıq xaricə səyahətə məhdudiyyət qoyulub. Çoxları məni Bakıya dəvət etdi, amma artıq alınmır. Əgər Moskvadasınızsa, buyurun, sizi görməyə şad olaram.

***Tərcümə - Elçin Bayramlı***

5 noyabr
2021-ci il

## Azərbaycanda yeni pul nişanları buraxılıb




Qarabağın azadlığı uğrunda 44 günlük Vətən müharibəsində tarixi Zəfər gününə həsr olunmuş xatirə pul nişanları buraxılıb. SİA mənbəyə istinadən xəbər verir ki, pul nişanlarının üzərində "Qarabağ Azərbaycandır!", eləcə də Azərbaycanın işğaldan azad edilmiş şəhər və rayonlarının adları yazılıb.



## Ərini öpməkdən doymadı

Karikaturaçı və heykəltəraş Erdil Yaşaroğlunun doğum günü Volkan Dəmirəllə müqayisədə olduqca təvazökar olub. SİA xarici mətbuata istinadən xəbər verir ki, aktrisa Begüm Kütük 50 yaşı tamam olan əri üçün evi şarlarla bəzədib. O, "Səninlə 35 yaşında tanış oldum, hansı ara 50 oldun" dedi və Erdili öpməkdən doymadı.

## Daha iki komanda 1/8 finalda, "Beşiktaş" darmadağınla qrupda qaldı



**Futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsində 4-cü tura yekun vurulub. Belə ki, 2-ci oyun günündə daha 8 matç keçirilib. A qrupunda "Mançester Siti" "Brügge", "Leyptsiq" isə PSJ ilə qarşılaşıb. "Şəhərlilər" 4:1 hesablı qələbə qazanıb. Digər görüşdə bərabərlik qeydə alınıb - 2:2.**

B qrupunda "Milan" "Portu" heç-heçə edərək (1:1) ilk xalını qazanıb. Qrupun digər matçında "Liverpul" "Atletiko" ilə üz-üzə gəlib. Ev oyununda 2:0 hesablı qələbə qazanan Yurgen Kloppun komandası sona iki tur qalmış ple-offa vəsiqəni əldə edib. Mersisayd təmsilçisi qələbə qazanacağı təqdirdə, vaxtından əvvəl pley-offa vəsiqəni təmin edəcəkdi. İngilislərin bu arzusu artıq reallaşıb.

C qrupunda Türkiyənin turnirdəki yeganə təmsilçisi "Beşiktaş" "Sportinq"in qonağı olub. Meydan sahibləri rəqibini 4 cavabsız qolla məğlub edib. Bununla da İstanbul klubunun qrupdan çıxmaq şansı qalmayıb. "Borussiya" (Dortmund) isə "Ayaks"ı qəbul edib. Niderland təmsilçisi səfərdə qələbə qazanmaqla (3:1), növbəti mərhələyə vəsiqəni təmin edib

D qrupunda "Real" Donetsk "Şaxtyor"una 2:1, "İnter" isə "Şerif"ə 3:1 hesabı ilə qalib gəlib. Qeyd edək ki, artıq"Bavariya" və "Yuventus" da 1/8 finala vəsiqəni təmin edib.

## Hansı peşənin sahibləri ürək xəstəliyinə tutulur? HƏKİM AÇIQLADI



"Ürək xəstəlikləri hər zaman aktual bir mövzudur. Dünyada ve ölkəmizdə öndə gedən ölüm səbələrindən biri budur. Vaxtında aydınlaşdırıla bilsə, qarşısı alına biləcək xəstəliklərdir. Xəstəliyin simptomları, şikayətləri - fiziki hərəkətlə yaranan, bəzilərində ciddi emosional streslə yaranan sinənin orta hissəsində və ya sol tərəfdə yaranan sıxılma, göynəmə tərzində olan ağrılar və bu ağrıların sol qola, kürək ve boyun nayihəsinə yayılmasıdır". Bu sözləri SİA-ya açıqlamasında həkim Xatirə Əliyeva deyib.

Onun sözlərinə görə, bu tip ağrılar olduqda ilk olaraq kardiolaqa müraciət etmək lazımdır. Bu ağrılar kimlərdə daha çox görülür, kimlər daha çox risk faktorudur:

- yaşlı insanlar
- kişilər
- Şəkər və hipertoniya xəstəliyi olanlar
- Kök və hərəkətsiz insanlar
- Qanda xolesterin səviyyəsi yüksək olan insanlar
- Siqaret çəkənlər.

Belə insanların vaxtaşırı kardiovaskulyar sistemə aid "check-up" müayinə olunmaları məsləhətdir.

Müəyyən olunmuşdur ki, müəyyən peşə sahələrində işləyən insanlarda ürək-damar sistemi xəstəlikləri daha çox rast gəlinir. Temperaturun kəskin dəyişməsi və ya ekstremal olması, səsli-küylü iş yerləri (Zavod-Fabrik), stresli həyat tərzinə gətirən iş rejimləri.

Bu göstərilən səbəblər arasında son dövrlərdə ən çox rast gəlinəni stresli həyat tərzidir. Stresli həyat tərzi orqanizmdə xəstəliklərin əmələ gəlməsinə və ya xroniki xəstəliklərin dərinləşməsinə, ağırlaşmasına gətirib çıxara bilər.

Əgər stress nəticəsində özünüzdə hər hansı bir narahatçılıq: (yuxu pozğunluğu, gərginlik, yorğunluq, ürəkdöyünmə, arterial təzyiqin yüksəlməsi və s.) kimi hallar hiss edirsinizsə, dərhal həkimə müraciət etməniz məsləhət görülür.

*Ayşən Vəli*

## Cüzi qiymətə bahalı paltar almağın yolu

**İngiltərə sakini 55 yaşlı Viktoriya Abadi bahalı brend almağın yolunu açıqlayıb. Onun sözlərini Daily Mail sitat gətirir. 1989-cu ildə universitetdə oxuyarkən maliyyə problemləri olduğunu deyən Abadi buna görə pula qənaət etmək üçün ikinci əl paltarlar almağa başlayıb.**

Onun sözlərinə görə, qarderobunun 95 faizi ikinci əl əşyalardan ibarətdir. Qadın bütün geyimlərinin əsl dəyərinin beş min funt sterlinq (500 min rubl) olduğunu, ancaq buna cəmi 500 lirə (50 min rubl) xərclədiyini vurğulayıb. Dediyinə görə, kolleksiyasına Gucci, Topshop, Miss Selfridges, Asos, River Island və digər brendlərin malları daxildir.

Abadi etiraf edib ki, ikinci əl mağazalarında alış-veriş etmək ona obrazlarını yaradan zaman kənarda düşünməyə kömək edir.



"Həftədə iki dəfə dükanlara gedirəm. Mən həqiqətən dəyərli bir şey tapmaq üçün orada bir neçə saat sərf etməyi xoşlayıram. Mən dəblə təcrübə etməyi və 50 yaşımda özümü heyrətamiz hiss etməyi sevirəm".

*Zeynəb Babayeva*

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600